QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 061 (5533) 31 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

11 Aprel 2018
www.yap.org.az
#ilhamlairəli

İlhamla irəli



# Xalqın yeganə seçimi İlham Əliyevdir!



**1918-Cİ İLİN 31 MARTI: TÜRK MÜSƏLMAN SOYQIRIMI**



13

**İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması mövzusunda tədbir keçirilib**



3

**Milli Məclis azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı Bəyanat qəbul edib**



6

**"Soyqırımı ilə bağlı əsərlər daha çox beynəlxalq aditoriyaya təqdim olunmalıdır"**



5

**MSK 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib**



5

14

**Pul qarşılığında əqidəsini satmaqda radikallar özləri əvəzsiz və təkrarolunmazdır**



14

**İki radikal və anti-milli qütb bir arada**



5

**"Konstantin Zatulin ermənilərə sifarişlə çalışan çox zavallı və miskin bir şəxsdir"**






# Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbərini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda qarşıdan gələn prezident seçkilərinin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

Prezident İlham Əliyev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Tovuz şəhərinin su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Kürdəmir rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması mövzusunda tədbir keçirilib

***Martın 30-da Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində "İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması: mənfi meyillərə qarşı jurnalist həmrəyliyi" mövzusunda tədbir keçirilib.***




AZƏRTAC xəbər verir ki, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov tədbirdə çıxış edərək Avropaya sığınan bir neçə azərbaycanlının son zamanlar etik prinsipləri pozaraq Azərbaycan, dövlətimizin başçısı, dövlət rəmzləri haqqında təhqiredici ifadələr səsləndirdiklərini söyləyib. O deyib ki, qarşıdan prezident seçkiləri gəlir və biz belə çirkin əməlləri bununla əlaqələndiririk.

Mətbuat Şurasının sədri bildirib ki, belə çirkin əməllər əvvəlki seçkilərdə də müşahidə olunub. Lakin bu hal indi daha kəskin və sərt təhqir, qəzəb və söyüşlə müşayiət olunur. Belə qüvvələrin məqsədi cəmiyyətdə bölücülük yaratmaqdır. Lakin onlar azlıq təşkil edirlər. Bu gün Avropada və dünyanın digər ölkələrində xeyli sayda azərbaycanlı yaşayır. Onlar Azərbaycanı xaricdə uğurla təmsil edir, ölkəmizlə bağlı həqiqətləri fəal təbliğ edirlər.

Diqqətə çatdırılıb ki, təhqir və söyüş üsulunu siyasi mübarizə yolu kimi seçən müəyyən insanlar yaşadıqları ölkələrdən müxtəlif təhdidlər səsləndirirlər. Bu, qanunla qadağandır və insan hüquqlarına ziddir. Bu tədbirin keçirilməsi cəmiyyətdə barışın və həmrəyliyin qorunması üçün çox vacibdir.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. Mətbuat Şurasının təşəbbüsü ilə keçirilən bu tədbirin aktual mövzuya həsr olunduğunu qeyd edən Prezidentin köməkçisi deyib ki, cəmiyyətimizi düşündürən mühüm ictimai-siyasi proses - prezident seçkisi ərəfəsində belə mövzuda müzakirələrin aparılması çox önəmlidir.

Əli Həsənov deyib ki, dünyada xalqların gücü onların sayı, yaşadığı ərazinin böyüklüyü, iqtisadi resursları ilə yanaşı, həm də həmin xalqı təmsil edən milli elitanın səviyyəsi, fəallığı, ölkə daxilində və xaricində baş verən hadisələrə yanaşması ilə ölçülür. Azərbaycan cəmiyyəti də digər cəmiyyətlərdən ciddi fərqlənmir. Milli elitanın ən fəal təbəqəsi qələm sahibləridir. Azərbaycan cəmiyyətində həmişə mühüm proseslərə qiymət verən, insanlarda həmin hadisələrlə bağlı münasibət formalaşdırmağa təsir edən məhz belə ziyalılardır. Çox yaxşı haldır ki, bu məsələdə də obyektiv mövqedən çıxış edən ziyalılarımız oldu.

Prezidentin köməkçisi bildirib ki, xarici ölkələrdə yaşayan bir neçə azərbaycanlının ölkəmizə qarşı heç bir əxlaq çərçivəsinə sığmayan münasibətlərinə, fikirlərinə cəmiyyətin əksər üzvləri kifayət qədər konstruktiv, təsirli və cəmiyyət üçün əhəmiyyətli rakurslardan yanaşaraq münasibət bildirirlər.

Yeni yüzilliyin əvvəllərindən etibarən sosial şəbəkələrin dünya siyasətinə, qlobal informasiya mühitinə təsir edən, bir sıra hallarda ayrı-ayrı ölkələrdəki daxili siyasi mübarizənin taleyini həll edən əsas vasitələrdən biri kimi qəbul olunmağa başladığını diqqətə çatdıran Əli Həsənov deyib ki, sosial şəbəkələrin son illərdə yaratdığı imkanların Avrasiya və Yaxın Şərq coğrafiyasında, xüsusən də ərəb ölkələrində hansı fəsadlara gətirib çıxardığı bu gün də əsas müzakirə mövzularından biridir. Hətta 2011-ci ildə Böyük Britaniyada baş vermiş iğtişaşlar zamanı sosial şəbəkələrdən istifadə məhdudlaşdırıldı və bu addımın "zərərli çağırışların qarşısını almaq" məqsədi daşıdığı bildirildi. Yəqin elə bu səbəbdəndir ki, Azərbaycanla qonşu olan böyük ölkələrdə ayrı-ayrı vaxtlarda sosial şəbəkələr məhdudlaşdırılıb, ya da böyük milli şəbəkələr yaradılmasına cəhd göstərilib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan heç bir dönəmdə, ən azından ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il avqustun 6-da KİV üzərindən bütün senzura və qadağalar ləğv olunduqdan sonra nə hər hansı media qurumunun fəaliyyətinə məhdudiyyət qoymayıb, nə yeni fenomen olan şəbəkə məhdudlaşdırma yolunu seçməyib, nə də ki, ölkəmizdə milli şəbəkələrin qurulmasına təşəbbüs göstərməyib. Qlobal informasiya və ünsiyyət şəbəkələrinə giriş bizim ölkədə sərbəstdir və bəzi milli dönüklərin okeanın o tayından verdikləri saxta proqnozlara baxmayaraq, sərbəst də saxlanılacaq. Azərbaycan hakimiyyəti bəhs etdiyim dövrdə sosial şəbəkələrə cəmiyyətlə və dünya ilə asan təmas imkanlarından biri kimi yanaşıb və yanaşmaqda da davam edir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin özünün, müxtəlif dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Prezident dəfələrlə sosial şəbəkələrdə qaldırılan problemlərə reaksiya verib, internetə məlumat mənbələrindən biri kimi yanaşdığını bildirib.

Hazırda Azərbaycanda Facebook, Tvitter, Youtube, İnstagram və digər sosial şəbəkələrdə istifadəçilərin sayının 3 milyona yaxınlaşdığını qeyd edən Əli Həsənov deyib ki, cəmi 10 milyona yaxın əhalisi olan bir ölkə üçün bu, həqiqətən böyük göstəricidir. Azərbaycanda müasir rabitə və internet infrastrukturunun qurulması, tariflərin region ölkələrindəki qiymətlərlə uyğunlaşdırılması, hər kəsin bu sahədə sərbəst fəaliyyəti üçün şərait yaradılması, mövcud seqmentdə fikir plüralizminin təmin olunması ölkəmizdə sosial şəbəkələrin inkişafına müsbət təsir göstərən əsas amillərdir. Prezidentin köməkçisi deyib: "Azərbaycan hakimiyyətinin sosial şəbəkələrə müsbət münasibəti, bu seqmentdən geniş istifadə üçün yaratdığı hərtərəfli şərait müqabilində təəssüf ki, bəzi dairələrin mövcud imkanlardan sui-istifadə cəhdləri cəmiyyətimizi narahat etməyə bilməz. Müəyyən xarici qüvvələrin və daxili siyasi qrupların Azərbaycan hakimiyyətinə, bir çox hallarda isə bütövlükdə Azərbaycan dövlətinə qarşı davamlı olaraq iyrənc kampaniya aparması bunu açıq şəkildə göstərir. Ayrı-ayrı vaxtlarda təşkil olunan kampaniyaların təşkilatçıları və iştirakçıları ölkədəki dünyəvi rejimi, etnik-dini münasibətlər sistemini hədəf götürür, ölkəmizin adının belə "tarixi səhv" nəticəsində yarandığı haqda uydurmalar yayırlar. Məqsədyönlü şəkildə açılmış, fərqli radikal dini qrupların, separatçı dərnəklərin nəzarətində olan səhifələr ölkədəki tolerant mühiti, ən böyük sərvətimiz və inkişafımızın rəhni olan sabitliyi hədəfə alırlar. Sirr deyil ki, bu çevrələr, dərnəklər, qruplar bəzi qonşu dövlətlərin, xüsusən Ermənistanın məkrli mərkəzlərinin təsiri altındadır. Yenə də təəssüflə qeyd etməliyəm ki, 2015-ci ildən üzü bəri dövlətimizin başçısının şəxsiyyətinə, ailə üzvlərinə, komandasına, vəzifəli şəxslərin ailə üzvlərinə qarşı aparılan çirkin kampaniya anti-Azərbaycan mərkəzlərin fəaliyyəti ilə sinxronluq təşkil edir. Bu ardıcıllıq hətta böyük informasiya axınına çıxışı olmayan sıravi, amma diqqətli vətəndaşlarda belə koordinasiyalı fəaliyyət təəssüratı yaradır. İnformasiyalara çıxış olan dövlət adamları, ictimai xadimlər, media nümayəndələri üçün isə bu, sadəcə, təəssürat deyil, real faktdır".

Son zamanlar, xüsusən də Azərbaycanda növbəti prezident seçkiləri aprelin 11-nə təyin olunandan sonra qeyd edilən mərkəzlərin məkrli "Azərbaycan layihəsi"ni dövriyyəyə buraxdıqlarını diqqətə çatdıran Əli Həsənov bildirib ki, onlar bu işə xarici ölkələrdə müxtəlif vasitələrlə öz təsirləri altında saxladıqları bəzi soydaşlarımızı qoşublar. Qısa zaman kəsiyində bu çirkin kampaniya ifrat həddə çatdığına görə ölkənin informasiya siyasətinə, diaspor nümayəndələri ilə əlaqələrə məsul şəxs kimi mən mövcud durumun kəskinliyi barədə xüsusi bəyanatla çıxış etdim və ölkə ictimaiyyətini məlumatlandırdım. Fevralın sonunda Niderlandda diaspor nümayəndələri ilə görüşdə, martın əvvəlində isə jurnalistlərin qurultayındakı çıxışımda mən üzümü bu kampaniyanı təşkil edənlərə və icraçılara tutaraq belə antimilli fəaliyyətin Azərbaycan cəmiyyəti tərəfindən heç zaman dəstəklənməyəcəyini bəyan etdim. Bunun ardınca bir neçə gün sonra Mətbuat Şurasının 15 illik yubileyində bir daha bu fəaliyyəti başlayanlara və icraçılara çağırış etdim. Amma təəssüf edirəm ki, onlar bu çirkin fəaliyyəti dayandırmadılar. Novruz bayramı günü mən yenidən, bu dəfə özlərini bizim hakimiyyətə opponent hesab edən qrupların sevimli platforması sayılan Facebook vasitəsilə çıxış etdim. Sevinirəm ki, ard-arda dərc etdiyim bu müraciət və statuslar media nümayəndələri, yaradıcı insanlar, QHT təmsilçiləri - bir sözlə, ölkə ziyalılarının geniş spektri tərəfindən müsbət qarşılandı. Çünki ortada Azərbaycanın milli maraqları, dövlətimizin mənafeyi, xalqımızın mənəviyyatı məsələsi dayanmışdı. Mənim milli ziyalılarımızın belə məqamlarda, xüsusən də dövlətçiliyimizin əsaslarına təhlükə yarananda yüksək vətənpərvərlik göstərəcəklərinə heç bir şübhəm yox idi və belə də oldu.

Ardı Səh. 4

# İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması mövzusunda tədbir keçirilib

Əvvəli-Səh-3

Prezidentin köməkçisi deyib: "Son günlərin müzakirələri həm də xaricdə oturub anti-Azərbaycan dairələrin aləti qismində çıxış edənlərin, "söyüş makinası"na yem olanların iç üzünü açdı və cəmiyyətə tanıtdırdı. O da göründü ki, Azərbaycanın daxilində oturub çirkin söyüş müxalifətini dəstəkləyənlər, onların mənəviyyatsız əməllərini bəzi hakimiyyət dairələrinin adına yazaraq Prezidentin komandasında qarşıdurma yaratmaq istəyənlər daha ziyanlı mənəviyyat sahibidirlər. Bu müzakirələrdən sonra əvvəllər barışdırıcı kimi görünməyə çalışanların çıxışlarında, təhlillərində bir həqiqət etiraf olunmağa başlayıb - hədəf, sadəcə, Prezident və onun ailə üzvləri, komandası, o komanda üzvlərindən biri olan mən - Əli Həsənov deyil. Məqsəd Şərq mentalitetinin incəliyinə hesablanıb - hədəf birinci şəxsin və komandasının müsbət imicini zədələməklə, onlara qarşı kütləvi narazılıq ovqatı formalaşdırmaqla, komandadaxili qarşıdurma yaratmaqla ölkədəki mövcud sabitliyi pozmağa nail olmaqdır. Bu işin təşkilatçıları və icraçılarını Azərbaycanı suriyalaşdırmaq istəyən "virtual İŞİD" adlandırmaqda haqlı olduğum indi həmin qüvvələrin "ağsaqqalları" tərəfindən dolayısı ilə etiraf olunur".

Əslində, bunun yeni plan olmadığını vurğulayan Əli Həsənov bildirib ki, hələ Dağlıq Qarabağ münaqişəsi başlayanda erməni lobbisi öz mənfur arzusuna çatmaq üçün Bakını Beyruta, Azərbaycanı Livana çevirmək istəyirdi və bunu gizlətmirdi. Həmin qüvvələr və "sapı özümüzdən olan baltalar" 2003-cü və 2008-ci illərdə cidd-cəhdlə buna çalışdılar. Lakin o dövrdə Prezident İlham Əliyevin xalqla birliyinə və dəmir iradəsinə çırpılaraq geri çəkildilər. Belələri 2013-cü ildə yeni bir məkrli plan quraraq, xarici dairələrin köməyi ilə "Milyarderlər İttifaqı" yaratdı və "aldanmış kəvakib"dən istifadə edərək hakimiyyəti ələ keçirməyə cəhd göstərdilər. Xoşbəxtlikdən hər dəfə də bu antimilli ünsürlər ölkə Prezidentinin dəmir iradəsi, onun sədaqətli silahdaşlarının yekdil mövqeyi və ən əsası, Azərbaycan xalqının keçilməz müqaviməti ilə üzləşərək necə gəlmişdilərsə, eləcə də qayıdıb getdilər. Bu gün də onlar yatmayıb, sadəcə olaraq, qəfil yaxalandıqları üçün hazırlıqsızdırlar. Odur ki, güman qalıb onların daim bacardıqları işə - xəyanətə, hiyləyə və bir də söyüşə. Bu dəfə "livanlaşdırma" termini də dəyişib və "suriyalaşdırma" ilə əvəz olunub.

Prezidentin köməkçisi deyib: "Hazırkı siyasət masasının üzərində bizim dövlətin əsas maraq və mənafeləri, dəyərləri, bütün dünyada yaşayan soydaşlarımızı birləşdirən azərbaycançılıq ideyasının taleyi, dövlət təhlükəsizliyimiz, mənsub olduğumuz xalqın milli-mənəvi dəyərləri və milli heysiyyətimiz durur. Özünü azərbaycanlı sayan heç kimin biganə qala bilməyəcəyi dəyərlərimizə haqsız, məkrli, düşünülmüş, əlaqələndirilən hücum var. Belə hallarda heç birimiz gözləmə mövqeyi tuta bilmərik. Biz ya ictimai meydanı dövlətimizi "Aran", "Abşeron sultanlığı" adlandıran xain və məkrli qüvvələrin əlində alətə çevrilmiş qaragüruhçu ünsürlərə verməli, ya da milli elitanı, ölkə ziyalılarını səfərbər edərək bu antiəxlaq ünsürlərinə "dur" deməliyik, insanları yanlış yoldan çəkindirməyi bacarmalıyıq. Buna görə də xalqımız və dövlətimizin firavan gələcəyi naminə fəaliyyət göstərən millət vəkillərimiz, siyasətçilərimiz, alimlərimiz, yazıçılarımız - bir sözlə, ziyalı adını daşıya biləcək hər kəs öz mövqeyini nümayiş etdirməli və biabırçı "söyüş makinası"nı, təhqir qaragüruhunu dayandırmalıdır.

Ölkəmizdə mətbuat və söz azadlığının tam təmin olunduğunu vurğulayan "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov təəssüflə bildirib ki, bəzi insanlar ölkəmizdə ifadə azadlığından söyüş və təhqir azadlığı kimi istifadə edirlər. Azərbaycandan kənarda yaşayan həmvətənlərimiz xalqımızın milli-mənəvi dəyərlərini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması vəzifəsini unutmamalıdırlar. Söyüş və təhqirin heç vaxt mübarizə vasitəsi ola bilməyəcəyini deyən B.Sadıqov bildirib ki, həmin insanların mübarizəni bu üsullarla aparmaları onların əlində heç bir faktın olmadığını göstərir.

Milli Məclisin deputatı Aqil Abbas belə hadisələrlə bağlı parlamentdə də müzakirələrin aparıldığını vurğulayaraq deyib ki, Azərbaycanda hansısa bir ölkə haqqında münasibət bildiriləndə həmin ölkələrin səfirliklərinin dərhal ciddi etirazları ilə qarşılanır. Ona görə də Azərbaycanın xarici ölkələrdəki səfirlikləri həmin dövlətlərin müvafiq qurumlarına ölkəmizdə vətəndaş qarşıdurması yaratmaqla bağlı çağırışlar səsləndirən bu insanlar barədə lazımi tədbirlərin görülməsi üçün fəallığı artırmalıdırlar. Çox təəssüf ki, belə insanlar Azərbaycanda da var. Bu gün Azərbaycan cəmiyyəti, o cümlədən ziyalılarımız belə şəxslərə qarşı lazımi səviyyədə tutarlı cavab verirlər.

"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı xaricdə yaşayan bəzi azərbaycanlının Azərbaycan, dövlətimizin başçısı və müəyyən dövlət məmurları haqqında təhqiredici ifadələr səsləndirməsini ciddi qınayıb. Bəzi ziyalıların bu insanları dialoqa çağırmalarından sonra həmin ziyalılara qarşı da hücumların olması belə insanların ölkəmizə qarşı nə dərəcədə barışmaz mövqe tutduqlarını göstərir. Həmin insanlar Azərbaycan ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması ilə bağlı xaricdə keçirilən tədbirlərdə iştirak etmirlər. Ümumiyyətlə, onların bəziləri hətta başqa ölkələrin pasportlarını daşıyırlar. A.Aşırlı sosial şəbəkələrdəki bu cür təhdidlərin qarşısının alınmasında onlayn mediadan istifadə mövzusunun tədris proqramına salınmasının və xaricdə yaşayan azərbaycanlılardan ibarət vətəndaş birliyi xartiyasının yaradılmasının əhəmiyyətini bildirib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib ki, qlobal imperializmin silahı qismində yaradılan sosial şəbəkələrdən milli dövlətlərə qarşı yumşaq güc vasitəsi kimi istifadə olunur. Siyasi intellektual mübarizənin əsas komponentlərindən birinin siyasi əxlaq və mədəniyyət olduğunu vurğulayan H.Babaoğlu deyib ki, biz "yumşaq güc" vasitəsilə münasibətləri hüquqi mexanizmlərlə tənzimləməliyik. Belə ki, siyasi mübarizədə təhqir və söyüşlərdən istifadənin qarşısı hüquqi yollarla alınmalıdır.

Azərbaycan Televiziyasının informasiya proqramları studiyasının baş direktoru Faiq Hüsüyev bildirib ki, taleyüklü məqamlarda cəmiyyətin bütün üzvləri birləşərək yekdil mövqedən çıxış etməlidirlər. Təəssüf ki, xaricdə yaşayan bəzi azərbaycanlılar ölkəmiz haqqında söyüş və təhqirlər yağdıraraq nəyəsə nail ola biləcəklərini düşünürlər. Faiq Hüsüyev ziyalıların və jurnalistlərin belə şəxslərə qarşı fəal mübarizə aparmalarının, bu cür halların qarşısının alınması üçün ictimai qınağın təşkil edilməsinin vacibliyini vurğulayıb.

"Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz qeyd edib ki, adətən ölkəmizlə bağlı mühüm ictimai-siyasi hadisələr, seçkilər, xüsusilə beynəlxalq qurumların Azərbaycana dair hesabatlarının açıqlanması ərəfəsində xaricdə yaşayan və ələ alınmış bəzi azərbaycanlılar tərəfindən ölkəmiz, dövlətimiz, seçkilər dövründə isə namizədlərə qarşı sistemli şəkildə təhqir və böhtan xarakterli fikirlər səsləndirilir. Biz buna qarşı vahid mövqedən çıxış etməliyik.

Azərbaycan Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli ölkəmizin dünyada sabitlik adası olduğunu vurğulayaraq bildirib ki, xaricdə yaşayan bəzi azərbaycanlılar tərəfindən belə böhtan və təhqir kampaniyasının aparılması Azərbaycandakı ictimai-siyasi sabitliyin pozulması məqsədinə xidmət edir. Belə insanlar hətta milli mentalitetimizin qırmızı cizgisini keçən ən sərt təhqir və söyüşlərdən istifadə edirlər. Ona görə də cəmiyyətimizin hər bir üzvü, o cümlədən həm QHT, həm də KİV təmsilçiləri belə hallara qarşı ortaq mövqedən çıxış edərək, güclü ictimai qınaq formalaşdırmalıdırlar.

"Gününsəsi.info" saytının baş redaktoru Pərviz Həşimli Azərbaycana qarşı böhtan və şər xarakterli təhqiredici fikirlər səsləndirən belə şəxslərin mühüm ictimai-siyasi hadisələr ərəfəsində fəallaşdıqlarını qeyd edib. O, cəmiyyətin bütün üzvlərinin onların bu hərəkətlərinə qarşı sərt mövqedən çıxış etmələrinin vacibliyini bildirib.

"Təzadlar" qəzetinin baş redaktoru Asif Mərzili deyib ki, xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmiz əleyhinə apardıqları təhqir və söyüş kampaniyasına qarşı Azərbaycan cəmiyyətinin hər bir üzvü ən sərt və kəskin qınaq nümayiş etdirməlidir.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan cəmiyyətində qəbul olunmayan, ermənipərəst qüvvələrin mövqelərindən çıxış edən həmin insanların ölkəmizdə baş verən ictimai-siyasi proseslərə küçə təfəkkürü ilə yanaşmalarını qara ləkə adlandırıb. V.Rəhimzadə belə şəxslərə qarşı hüquqi müstəvidə sərt mübarizənin aparılmasının vacibliyini qeyd edib.

Milli Məclisin deputatı Elşən Musayev bildirib ki, həmin şəxslərin səsləndirdikləri böhtan, şər, təhqir, eləcə də ölkəmizdə qarşıdurma yaratmaq çağırışları ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin dövlətlərin aidiyyəti qurumlarına müraciət edərək lazımi tədbirlərin görülməsini təmin etməlidir.

"Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov xarici ölkələrə sığınan bəzi azərbaycanlıların xalqımıza qarşı mənfi mövqe tutmalarının, böhtan, təhqir yağdırmalarının cəmiyyətin hər bir üzvünün sərt narazılığına səbəb olduğunu bildirib. Hüquq mühafizə orqanları belə şəxslərə qarşı Azərbaycan qanunvericiliyinə uyğun olaraq lazımi tədbirlər görməli, İnterpola müraciət etməlidirlər. Həsən Həsənov təəssüflə bildirib ki, öz xalqı və dövləti əleyhinə təhqirlər səsləndirən belə azərbaycanlılar xalqımıza qarşı soyqırımları törətmiş erməni liderləri barədə etiraz bildirməyiblər.

"Bakinski raboçi" qəzetinin və "1news.az" saytının baş redaktoru Rəhman Hacıyev həmin şəxslərin müəyyən qüvvələrin sifarişlərini yerinə yetirdiklərini bildirib. Azərbaycan dövlətinin internetdən istifadəyə son dərəcə liberal davrandığını vurğulayan R.Hacıyev deyib ki, son zamanlar super dövlətlər tərəfindən sosial şəbəkələrdəki məlumatlardan müəyyən təsir və təzyiq vasitəsi kimi istifadə olunur. Buna görə də sosial şəbəkələrdən və internetdən istifadəyə nəzarət gücləndirilməlidir.

"Gündəlik Teleqraf" media qrupunun rəhbəri Aynur Camalqızı ölkəmiz əleyhinə çağırışların yer aldığı çarxların sosial şəbəkələrdən, o cümlədən "Youtube" sosial şəbəkəsindən çıxarılması ilə bağlı rəhbərlik etdiyi media qurumu tərəfindən görülən işlərdən danışıb. O, hüquq mühafizə orqanlarının belə hallarla bağlı lazımi tədbirlərin görülməsinin və cəmiyyətin hər bir üzvünün, xüsusən də ziyalıların kəskin mövqe bildirmələrinin vacibliyini qeyd edib.

"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu xaricdə yaşayan azərbaycanlıların ölkəmiz əleyhinə çıxış etmələrinin əslində böyük qüvvələrin Azərbaycan dövlətinə qarşı həyata keçirmək istədikləri məkrli planın tərkib hissəsi olduğunu deyib. Bildirib ki, bu gün Azərbaycanda mövcud olan möhkəm ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr həmin şəxslərdən istifadə edirlər. Təsadüfi deyil ki, buna görə də həmin qüvvələr Azərbaycandakı sabitliyin əsas dayağı olan xalq-iqtidar həmrəyliyini hədəfə alıblar.

Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının sədri Asif Əsgərli bəzi şəxslərin xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini hədəfə almalarını, ölkəmizə qarşı mənfi mövqe tutmalarını barbarlıq nümunəsi adlandırıb. O, xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmizin əleyhinə çıxış etmələrinin ermənipərəst qüvvələrin maraqlarına xidmət etdiyini bildirib.

Müzakirələrə yekun vuran Prezidentin köməkçisi Əli Həsənov jurnalistlərin cəmiyyətin avanqard qüvvəsi olduqlarını vurğulayaraq, fəal vətəndaşlıq və ziyalı mövqeyinə görə minnətdarlığını bildirib. Azərbaycan dövlətinin sağlam və peşəkar jurnalistlərə güvəndiyini deyən Əli Həsənov bildirib ki, ölkədə ictimai rəyi formalaşdıran, milli elitanı hərəkətə gətirən peşəkar jurnalistlərin olması çox əhəmiyyətlidir.

Əli Həsənov qeyd edib ki, bu gün Azərbaycanda dövlət siyasətinin həyata keçirilməsinin, onun uğurlu inkişafının və xaricdə təmsil olunmasının qarantı Azərbaycan Prezidentidir. Azərbaycan Prezidentinin siyasətinin gücü onun xalqın əksəriyyəti tərəfindən dəstəklənməsi, milli iradəyə söykənməsidir. Bu tədbirin məqsədi Azərbaycan dövləti ilə bağlı məkrli planlarını həyata keçirməyə çalışan qüvvələrə qarşı jurnalistlərin mövqeyini ifadə etməkdir. Tədbirdə Azərbaycan dövlətçiliyinin və milli maraqlarının əsas sütunlarının sarsıdılması cəhdlərinə qarşı mübarizə yollarının müzakirə edildiyini vurğulayan Prezidentin köməkçisi deyib ki, xalqımız ölkəmizdə sabitliyin inkişafını istəməyən, Azərbaycanın enerji resurslarında maraqları olan qüvvələrin öz niyyətlərini həyata keçirmələrinə imkan verməyəcək.

# Respondentlərin 83,4 faizi İlham Əliyevi seçib



Fransanın "OpinonWay" Sosioloji Tədqiqatlar İnstitutu "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ilə birlikdə prezident seçkiləri ərəfəsində Azərbaycandakı ictimai-siyasi və sosial-iqtisadi vəziyyətin qiymətləndirilməsi, habelə əhalinin seçkilərdə iştirakına maraq səviyyəsinin öyrənilməsi məqsədilə cari ilin mart ayında sosioloji sorğu keçirib. SİA-nın verdiyi məlumata görə, dünən sorğunun nəticələri elan olunub. "OpinonWay" təşkilatının nümayəndəsi Bruno Janbart bildirib ki, sorğuya Naxçıvan Muxtar Respublikasının ərazisi və işğal olunmuş rayonlar istisna olunmaqla respublikanın digər şəhər və rayonlarında yaşayan və yaşı 18-dən yuxarı olan 1200 respondent cəlb olunub.

Sorğuda iştirak edəcək respondentlərin müəyyənləşdirilməsi cins, yaş qrupu və yaşayış məntəqələrinin tipləri (şəhər və kənd) üzrə kvotalar tətbiq edilməklə çoxmərhələli təsadüfi seçmə metodologiyası əsasında aparılıb. Sahə işləri bu tip tədqiqatlarda geniş təcrübi bilik və bacarıqlara malik tədqiqat qrupu tərəfindən strukturlaşdırılmış sorğu anketindən istifadə edilməklə üz-üzə müsahibə formasında həyata keçirilib.

Sorğuda iştirak edən respondentlərin 48,1 faizini kişilər, 51,9 faizini qadınlar təşkil edib. Respondentlərin 15,6 faizi 18-24, 24,5 faizi 25-34, 33 faizi 35-49, 18,5 faizi 50-64 yaş, 8,4 faizi isə 65 yaş və daha yaşlı qruplara aid olub.

Respublikadakı mövcud iqtisadi vəziyyətin qiymətləndirilməsi məqsədi daşıyan suala respondentlərin 45,9 faizi vəziyyətin əvvəlki illərə nisbətən daha da yaxşılaşdığı, 23,4 faizi dəyişilməz qaldığı, 11,7 faizi isə pisə doğru dəyişdiyi qənaətində olduqlarını bildirib. Bir sıra ictimai, siyasi və iqtisadi məsələlərlə bağlı mövcud vəziyyətin nə dərəcədə qənaətbəxş olduğunu öyrənmək üçün respondentlərə verilmiş suala rəyi soruşulanların 67,6 faizi milli təhlükəsizlik, 66,1 faizi iş imkanlarının mövcudluğu, 60,4 faizi isə cinayətkarlıqla mübarizənin onları qane etdiyini vurğulayıb.

Sorğu zamanı respondentlərin 68,9 faizi Azərbaycanda mövcud siyasi sistemin fəaliyyətindən razı, 15,4 faizi isə narazı olduğunu göstərib. Rəyi soruşulanların 15,7 faizi sualı cavablandırmaqda çətinlik çəkib. "Prezident İlham Əliyevin ölkə başçısı kimi vəzifəsinin icrası sizi nə dərəcədə qane edir" sualına rəyi soruşulan respondentlərin 81,4 faizi bu məsələnin onları qane etdiyini, 11,2 faizi isə qane etmədiyini göstərib. Respondentlərin 7,4 faizi bu sual ilə bağlı hər hansı münasibət bildirməkdə çətinlik çəkdiyini bildirib.

Sorğunun nəticələri onu söyləməyə imkan verir ki, əhali arasında prezident seçkiləri ilə bağlı aparılan kampaniyaya maraq kifayət qədər böyükdür. Belə ki, respondentlərin 78,2 faizi bu kampaniya ilə bağlı maraqlı olduğunu qeyd edib. Sorğuda iştirak edənlərin 15,2 faizi seçki kampaniyası ilə ümumiyyətlə maraqlanmadığını göstərib, 6,6 faizi isə sualı cavablandırmaqdan imtina edib. Seçkilərdə iştirak edib-etməyəcəkləri ilə bağlı sualı cavablandıran respondentlərin 80,5 faizi qarşıdan gələn seçkilərdə iştirak edəcəyini, 12,7 faizi istə iştirak etməyəcəyini bildirib. Respondentlərin 6,8 faizi seçkidə iştirakları ilə bağlı hələ yekun qərar qəbul etmədiyini göstərib.

"Aprelin 11-də keçiriləcək prezident seçkiləri bu gün keçirilsəydi hansı namizədə səs verərdiniz?" sualına cavabda sorğuda iştirak edən respondentlərin 83,4 faizi İlham Əliyevi seçib. Rəyi soruşulanların 12 faizi seçki kampaniyasında iştirak edən digər 7 nəfərə səs vermək niyyətini bildirib. Respondentlərin 1,9 faizi namizədlərdən heç birinə səs vermək istəmədiyini, 2,7 faizi isə bununla bağlı hazırda hər hansı bir fikri olmadığını göstərib.

***Ceyhun Rasimoğlu***

# Eldar İbrahimov: "Konstantin Zatulin ermənilərə sifarişlə çalışan çox zavallı və miskin bir şəxsdir"

***"Rusiya Dövlət Dumasının üzvü Konstantin Zatulin ermənilərə, separatçılıq fəaliyyəti ilə məşğul olanlara satılmış, muzdla, sifarişlə çalışan çox zavallı və miskin bir şəxsdir. Onun Azərbaycanla, xüsusilə, ölkə Prezidenti İlham Əliyevin səsləndirdiyi fikirlərlə bağlı mövqeyi sərsəmlikdən və boşbozağlıqdan başqa bir şey deyil. Boşboğazlıq, yalançılıq, şər və böhtançılıq onun xislətindədir". Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib.***

Azərbaycan Prezidentinin tarixi Azərbaycan torpaqları haqqında son dövrlərdə söylədiyi fikirlərin Ermənistanda çox ciddi narahatlıqla qarşılandığını deyən komitə sədrinin sözlərinə görə, xüsusən də, Cənab İlham Əliyevin azərbaycanlıların gec-tez İrəvan, Zəngəzur və Göyçə torpaqlarına qayıdacağı ilə bağlı bəyanatları həm Ermənistan rəhbərliyini, həm də xaricdəki erməni diaspor təşkilatlarını, sözün əsl mənasında, narahat etməkdədir: "Çünki ölkə Prezidentinin fikirləri, bəyanatları tutarlı arqumentlərə, tarixi faktlara və sübuta geniş ehtiyacı olmayan dəlillərə əsaslanır. Cənab İlham Əliyevin mövqeyi tam həqiqəti əks etdirir və erməniləri, işğalçılıq və təcavüzkarlıq siyasəti ilə məşğul olan cinayətkar Ermənistan rəhbərliyini, erməni lobbisi və diasporasını fakt qarşısında qoyur". E.İbrahimov deyib ki, burada da söhbət Azərbaycanın Ermənistana qarşı ərazi iddiasından deyil, azərbaycanlıların öz tarixi torpaqlarında yaşamaq hüququndan gedir.



Millət vəkili qeyd edib ki, Konstantin Zatulin Rusiyanın özündə qalmaqallı, keçmişi qaranlıq bir siyasətçi kimi tanınır. Onun sözlərinə görə, Zatulin çirkin yollarla Moskva Dövlət Universitetinə qəbul olunub: "Onun öz tələbə yoldaşlarının bildirdiyinə görə, Zatulin universitetdə, bir qayda olaraq, bu və ya digər qayda pozuntusu edən tələbələr barədə rəhbərliyə məlumat verməklə məşğul olub. İndiyə qədər də onun elmi biliyi və siyasi savadı həm tələbə yoldaşları, həm də Rusiya elmi ictimaiyyəti arasında böyük suallar doğurur. Zatulin Rusiya parlamentinə seçilənə qədər fırıldaq işlərlə məşğul olması ilə tanınıb. O, vaxtilə komsomol xətti ilə kommersiya obyektləri yaradıb, moskvalılara pulsuz mənzil verəcəyi ilə şirnikləndirməklə, 2 milyona qədər lotoreya satıb, amma onlara mənzil verməyib. O, bu və ya digər siyasi qüvvə tərəfindən maddi baxımdan, həvəsləndirilərək sifarişli siyasi fəaliyyəti ilə də tanınır. Ümumiyyətlə, onun adı, bir qayda olaraq, ya çirkin kommersiyalarda, ya fırıldaqçılıqda, yaxud da sifarişli siyasi fəaliyyətdə hallanır. Buna görə də, erməni millətçiləri Zatulindən vaxtaşırı özlərinin Azərbaycana qarşı çirkin ideoloji təbliğatında istifadə etməyə çalışırlar. Amma onun dediklərinə özündən və əmr aldığı və özü ağılda, təfəkkürdə olan ağalarından başqa kimsə inanmır. O, əslində, sərsəmləmələri ilə ermənilərə və nökərçilik etdiyi ağalarını da pus duruma salır. Çünki onun dedikləri fakt, sübut, arqument deyil, böhtan, şər və qarayaxmadır".

# Siyavuş Novruzov: Soyqırımı ilə bağlı əsərlər daha çox beynəlxalq aditoriyaya təqdim olunmalıdır



"Azərbaycanlılara qarşı törədilən soyqırımlar haqqında indiyə qədər yüzlərlə elmi əsərlər, kitablar nəşr olunub. Hesab edirəm ki, bu tarixi əsərlər, soyqırımı ilə bağlı sənədlər daha çox beynəlxalq aditoriyaya təqdim olunmalıdır". Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin dünən keçirilən xüsusi iclasında bildirib.

"Bu sənədlər xarici dillərə tərcümə olunaraq beynəlxalq ictimaiyyətə çatdırılmalıdır. Həmin sənədlər tərcümə olunub internetdə yerləşdirmək lazımdır ki, hər kəs oxusun.Təklif edərdim ki, Milli Məclisin bəyanatı da müxtəlif dillərə tərcümə olunsun və xarici ölkələrin parlamentlərinə göndərilsin. Həmçinin, bu məlumatlar müxtəlif yerli və xaricdə fəaliyyət göstərən saytlarda yerləşdirilsin"-deyə, S.Novruzov vurğulayıb.

# MSK 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib



Martın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2018-ci il 24 mart tarixli iclasının protokolu təsdiq edilib.

Sonra cari ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki günü seçki məntəqələrində proseslərin əvvəldən axıradək, fasiləsiz və arasıkəsilmədən izlənilməsi məqsədilə, işğal edilmiş ərazilər istisna olmaqla, respublika ərazisinin tam əhatə olunması prinsipi əsas götürülərək, 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kameraların quraşdırılması qərar verilib. MSK Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Demokrat Partiyası tərəfindən təqdim olunan vəkil edilmiş şəxsləri də qeydə alıb.

Beynəlxalq müşahidə missiyalarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

# SOCAR: "Dəniz özüllərində çalışan 1 000 nəfərdən çox neftçi təxliyyə olunub"

Hava şəraitinin qeyri-sabit olması ilə əlaqədar dünən zəruri növbətçilərdən başqa, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) dəniz özüllərində çalışan 1 000 nəfərdən çox neftçi quruya təxliyyə olunub. "Report" xəbər verir ki, bu barədə SOCAR məlumat yayıb.



# Milli Məclis azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı Bəyanat qəbul edib

Martın 30-da Milli Məclisin 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Milli Məclisin sədri Oqtay Əsədov çıxış edərək deyib ki, Prezident İlham Əliyevin yanvarın 18-də imzaladığı Sərəncama əsasən 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi dövlət səviyyəsində tədbirlərlə qeyd edilir. Parlamentin bugünkü iclası da tariximizin bu qanlı səhifəsinə həsr olunub.

Oqtay Əsədov bildirib ki, erməni şovinistləri və onları dəstəkləyən qüvvələrin Azərbaycan xalqına qarşı düşmənçilik siyasətinin 200 ilə yaxın tarixi var. Bu siyasətin birinci mərhələsi 1828-ci ildə Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğal edilməsi ilə başlanıb. Cənubi Qafqazda aparılan müstəmləkəçilik siyasətinin tərkib hissələrindən biri bölgənin demoqrafik vəziyyətinin dəyişdirilməsindən ibarət olub. Çar Rusiyası işğal olunmuş ərazilərdə öz dayaqlarını möhkəmləndirməyə çalışırdı. Bu məqsədlə İrandan və Osmanlı imperiyasından ermənilər planlı şəkildə Cənubi Qafqaza köçürüldü. İyirminci əsrin əvvəllərində artıq Azərbaycana bir milyondan çox erməni köçürülmüşdü. Ümumiyyətlə, tarixin müəyyən dövrlərində böyük dövlətlər öz geosiyasi planlarını həyata keçirmək üçün erməni amilindən çox məharətlə istifadə ediblər. Bu dövlətlərin gizli və açıq himayəsindən istifadə edən erməni millətçilərinin "böyük Ermənistan" xülyası Cənubi Qafqazın yerli əhalisini böyük fəlakətə gətirib çıxarıb. Erməni şovinistləri ələ keçirmək istədikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyətilə müxtəlif dövrlərdə Şərqi Anadoluda və Cənubi Qafqazda soyqırımı və terror aktları həyata keçiriblər. İki milyona qədər günahsız insan onların vəhşilik əməlləri nəticəsində həlak olub.

Milli Məclisin sədri qeyd edib ki, 1905-1907-ci illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və Azərbaycanın digər yerlərində dinc azərbaycanlılar soyqırımına məruz qalıb. 1918-ci ilin mart soyqırımı bu cinayət əməlləri silsiləsinin ən dəhşətlilərindən biri olub. Martın axırında Azərbaycanın paytaxtı Bakı şəhərində 12 mindən çox dinc əhali qətlə yetirilib. Xalqımıza qarşı düşmənçilik siyasəti sovet hakimiyyəti illərində də davam edib. 1921-ci ildən sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Zəngəzur, Göyçə mahalları, Qazax və Naxçıvanın bəzi kəndləri indiki Ermənistana verilib. Etnik təmizləmə siyasəti nəticəsində bu gün Ermənistanda, yəni, keçmiş Qərbi Azərbaycanda bir nəfər də azərbaycanlı qalmayıb. Azərbaycan xalqının fiziki məhvinə, onun tarixi əraziləri hesabına Ermənistan dövlətinin yaradılmasına yönəldilən siyasət ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanında ilk dəfə öz əksini tapıb. Bu Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib, Azərbaycana qarşı törədilmiş qanlı cinayətlərə siyasi-hüquqi qiymət verilib. Ulu Öndərin bu Fərmanı və sonra qəbul edilmiş sənədlər tarixi həqiqətlərin üzə çıxmasına və unudulmamasına xidmət edir.

Oqtay Əsədov bildirib ki, hər dəfə keçmişə nəzər salanda başımıza gətirilən fəlakətlərin səbəblərini araşdırırıq. Bu gün hər kəs bir həqiqəti başa düşür ki, tarixboyu soyqırımı aktlarına məruz qalmağımızın əsas səbəblərindən biri düşmən qarşısına mütəşəkkil şəkildə çıxa bilməməyimiz olub. Bu gün isə Azərbaycan gündən-günə güclənir, inkişaf edir. Bu, xalqımıza qarşı yeni soyqırımı cinayətlərinin törədilməməsinə ən yaxşı təminatdır. Azərbaycanın işğal olunmuş torpaqları gec-tez azad ediləcək, xalqımıza qarşı düşmənçilik edənlər cəzalarını alacaqlar. İndiki Ermənistan Respublikası tarixi Azərbaycan torpaqları üzərində yaradılıb. Bunu sübut etməyə ehtiyac yoxdur. Bu, tarixi faktdır. Tarix isə filosofların dediyi kimi, keçmişin şahidi və həqiqətin nurudur. Tarix hər kəsə layiq olduğu qiyməti verəcək. Haqq-ədalət öz yerini tutacaq.

Milli Məclisin deputatı, AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov iclasda azərbaycanlıların soyqırımının 100 illiyinə dair məruzə ilə çıxış edib. O, soyqırımının tarixi, ağır nəticələri haqqında ətraflı məlumat verərək bildirib ki, Azərbaycan xalqının başına gətirilən müsibətlər ermənilərin Cənubi Qafqaza köçürülməsi ilə başlayıb.

Mövzu ilə bağlı çıxış edən deputatlar qeyd ediblər ki, erməni silahlılarının Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin bənzəri yoxdur, dünya tarixində bu cür vəhşiliklər yoxdur. Bu, bəşər tarixində ən dəhşətli soyqırımlarından biridir.

Sonra Milli Məclisin azərbaycanlıların soyqırımının 100 illiyinə dair Bəyanatı qəbul edilib. Bəyanatı parlament sədrinin müavini Bahar Muradova təqdim edib.

# DSX-nin hərbi hissə və bölmələrində 31 mart soyqırımı əlaqədar anım tədbirləri keçirilib





Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində 31 mart -Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, Dövlət Sərhəd Xidməti Aparatında, Azərbaycan İstiqlal Muzeyində və Respublika Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində keçirilən tədbirlərdə vurğulanıb ki, azərbaycanlılara qarşı qətliam və etnik təmizləmə siyasəti erməni şovinist millətçiləri tərəfindən yüz illər boyu planlı surətdə həyata keçirilib. Bu siyasətin mahiyyəti azərbaycanlıları doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə mifik "böyük Ermənistan" dövləti yaratmaq olub. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasətin əsas məqsədi tarixi faktları və arxiv sənədlərini saxtalaşdırmaqla, dezinformasiya xarakterli məlumatlar yaymaq və psixoloji-informasiya metodlarından istifadə edərək dünya ictimai fikrinə təsir etməkdən ibarət olub. Məqsədlərinə nail olmaq üçün erməni millətçiləri ayrı-ayrı ölkələrin ərazilərində erməni diasporunun və lobbisinin imkanlarından geniş istifadə edərək ideoloji, separatçı və terrorçu təşkilatlar yaradıblar.

Tədbirlərdə çıxış edənlər bildiriblər ki, ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə verilən əsl tarixi qiymət idi. Azərbaycanlıların Soyqırımı Gününün məhz bu tarixdə qeyd edilməsi səbəbsiz deyildir. 1918-ci ilin mart ayının son iki günündə daşnak-bolşevik birləşmələri gəmilərdən və təyyarələrdən Bakının müsəlmanlar yaşayan hissələrini bombardman edib, silahlı erməni dəstələri evlərə soxularaq 17 minə qədər dinc azərbaycanlını, o cümlədən qadınları, körpələri və qocaları misli görünməmiş vəhşiliklə qətlə yetiriblər. Bakı qırğını ilə kifayətlənməyən ermənilər Naxçıvanda, Şamaxıda, Lənkəranda, Quba-Xaçmazda, Ağsuda dəhşətli qətllər törədib, yüzlərlə kəndi darmadağın ediblər.

Ermənilər tərəfindən törədilmiş çoxsaylı soyqırımı hadisələrinin mərhələlərlə şərh olunduğu tədbirlərdə vurğulanıb ki, bu vəhşiliklərin beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk əməli təşəbbüs ulu öndər Heydər Əliyev tərəfindən edilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan həqiqətlərinin, o cümlədən erməni şovinistləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətini dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi qoyub. Tədbirlərdə 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Şamaxılılar alternativsiz lider, Cənab İlham Əliyevə səs verəcəklər





Şamaxı rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Əngəxəran, Məlhəm və Çuxurdyurd qəsəbəsi kəndlərində dünən keçirilən tədbirdə YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov, YAP Mərkəzi Seçki Qərargahının üzvü, Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, yüksək beynəlxalq nüfuza və özünəməxsus inkişaf modelinə malik olan Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkiləri öncəsi ictimai-siyasi vəziyyət sabitdir. Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir, hər bir namizədə bərabər şərait yaradılıb, siyasi mübarizə üçün rəqabət mühiti mövcuddur və bütün bunlar seçkilərin demokratik, şəffaf və ədalətli keçəcəyini deməyə əminlik yaradır.

Çıxış edənlərin hər biri, öz növbəsində, prezident İlham Əliyevin Azərbaycana verdiyi töhfələri əsas tutaraq, seçkilərdə hamının yekdilliklə, işıqlı gələcəyə, Ümummilli Liderin layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəyinə əminlik ifadə ediblər.

Tədbirlərdə Məlhəm kənd sakinləri Gülbar Novruzov və Əlləz Ağayev çıxış edərək, ölkə Prezidentinin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə, dəstəkləndiyini qeyd edərək, seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar. İştirakçılar bildiriblər ki, şamaxılıların seçimi alternativsiz lider, Cənab İlham Əliyevdir.

## Xızılıların seçimi Cənab İlham Əliyevdir!

Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Yaşma kəndi seçicilərilə növbəti görüş keçirilib. Tədbirdə çıxış edən YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişaf etməsini, Azərbaycanın hazırda regionun lider dövlət olmasını, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin xeyli güclənməsini, ölkəmizin həm regionda, həm də dünyada mövqeyinin ciddi şəkildə möhkəmləndirməsini görüş iştirakçılarının diqqətinə çatdırıb. O, ölkə Prezidentinin bütün sahələr üzrə - iqtisadiyyat, kənd təsərrüfatı, ictimai-siyasi sabitlik, ordu quruculuğunun inkişafı sahələrində mühüm və təxirəsalınmaz islahatlar həyata keçirdiyini bildirərək bildirib ki, bu islahatların məntiqi nəticəsi olaraq, dövlətçiliyimiz daha da inkişaf edir, yüksək inkişaf və tərəqqi yolu uğurla davam etdirilir. F.Haqverdiyev əlavə edib ki, Xızı rayonundan olan seçicilər, birmənalı şəkildə, aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə çıxışında "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev bildirib ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub: "Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev ide-





yalarının ən layiqli davamçısı olaraq daim ölkəmizin inkişafı və xalqımızın rifahı üçün çalışıb. Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycan xalqına həsr edib". "Səs" qəzetinin Baş redaktoru B.Quliyev Xızı seçicilərini Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən - Əsgərov Şahin, Həsənov Nəriman və Musayeva Qızbəs də, öz növbələrində, aprelin 11-də seçki məntəqələrinə gedərək, bütün xızılıların daha işıqlı gələcəyə və daha firavan həyata - İlham Heydər oğlu Əliyevə, səs verəcəklərini vurğulayıblar.

Görüşün sonunda bir qrup fəal partiya üzvlərinə YAP Xızı rayon təşkilatının Fəxri Fərmanları təqdim edilib.

## Səhiyyə işçiləri Cənab İlham Əliyevə səs verəcəklər





Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində səhiyyə işçiləri ilə görüşü keçirilib. Tədbirdə 330-dək seçici iştirak edib.

Tədbiri giriş sözü ilə açan rayon şöbəsinin sədri Vüqar Seyidov ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən və sürətli iqtisadi inkişafa nail olmasından danışıb.

Rayon şöbəsinin sədri bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən 12 saylı BŞX-nın baş həkimi Bəhlul Məmmədov, Milli Məclisin üzvləri Sevinc Fətəliyeva, Ağacan Abıyev və səhiyyə işçiləri Tünzalə Süleymanova, Şərqiyyə İsmayılova, Şəfa Yusubova bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılması naminə apardığı məqsədyönlü fəaliyyəti hamımızın gözü qarşısındadır: "Tikilən yeni məktəblər, səhiyyə ocaqları və müasir görünüşlü inzibati binalar ölkəmizin simasını dəyişir. Biz ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir, cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırıq. Görüşdə seçicilər adından çıxış edənlər seçki günü fəal şəkildə məntəqələrə gedərək, Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

## YAP Binəqədi rayon təşkilatında ağsaqqal seçicilərlə görüş keçirilib




Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsində prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Binəqədi rayonunun ağsaqqal seçiciləri ilə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov bildirib ki, dövlət başçısı Cənab İlham Əliyevin son 15 il ərzində Azərbaycanda həyata keçirdiyi layihələr və gördüyü işlər əvəzsizdir: "Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıb. Azərbaycanın beynəlxalq nüfuzu artıb, dünya tərəfindən ən yüksək səviyyədə tanıdılıb".

R.Göyüşov çıxışında bildirib ki, ölkəmizdə təhlükəsizlik, ictimai-siyasi sabitlik tam təmin edilir. Bütün bu uğurların əsasında isə Cənab İlham Əliyevin milli maraqlara söykənən uğurlu siyasi xətti durur. Sədr çıxışının sonunda bütün ağsaqqal seçiciləri Cənab İlham Əliyevi dəstəkləməyə və Ona səs verməyə çağırıb.

Milli Məclisinin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxışında dövlətimiz tərəfindən bütün təbəqələrdən olan insanlara xüsusi diqqət və qayğı göstərildiyini, onların maddi-rifah halının yaxşılaşdırılması, onların normal həyat şəraitinin təmin edilməsi istiqamətində müvafiq tədbirlərin görüldüyünü söyləyib. F.Heydərov Azərbaycan Ağsaqqallar Şurasının sədri olaraq, daim münasibətdə və ünsiyyətdə olduğu ağsaqqallarla söhbətindən belə nəticəyə gəldiyini bildirib ki, Azərbaycan ağsaqqalları Cənab Prezidenti dəstəkləyir, Onun daxili siyasətini bəyənir və bu siyasətin ölkəmizi işıqlı gələcəyə apardığını alqışlayırlar. Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında bildirib ki, tarixin bütün dövrlərində Azərbaycan heç vaxt indiki qədər güclü və müstəqil olmayıb. Azərbaycanda aparılan müstəqil siyasət, uğurlu daxili islahatlar və balanslaşdırılmış xarici siyasət daha davamlı inkişafımıza əsaslı zəmin yaradır: "Bu gün Cənab Prezidentə xalqın inamı sonsuzdur və seçicilər onlarla keçirilən çoxsaylı görüşlərdə yalnız Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayırlar. Cənab Prezidenti dəstəkləyənlər içərisində, təbii ki, əhalinin bütün yaş kateqoriyalarından olan insanlar var. Ancaq ağsaqqalların müdrik və ziyalı sözləri daha hikmətlidir. Bu baxımdan, ağsaqqallarımız dövlət başçısını dəstəkləməklə yanaşı, bütün seçicilərin seçkilərdə fəal iştirak etməsi istiqamətində maarifləndirici görüşlərdə yaxından iştirak etməlidirlər". E.İbrahimov çıxışının sonunda bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə dəvət edib.

Görüşdə, həmçinin, çıxış edən bir qrup ağsaqqal seçici - Binəqədi rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, Yolçu Zeynalov, Şahrza Ağayev yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Ardı Səh.8

# Xalq İlham Əliyevə “HƏ” deyir!

## Suraxanı gəncləri gələcəyə səs verəcəklər





Dünən 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Suraxanı rayon təşkilatı Suraxanı rayon “Gənclər Evi” ilə birgə gənclərlə görüş keçirib. “Gənclər Evi”ndə baş tutan görüşdə YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov çıxış edərək, ilk öncə, gəncləri Cümhuriyyətin 100 illiyi münasibəti ilə təbrik etmiş və son 100 ildə respublikamızın keçdiyi həyat yolundan ətraflı danışmışdır. Vüqar Seyidov aprelin 11 - də keçiriləcək prezident seçkiləri ilə bağlı məlumat verərək, bildirmişdir ki, Prezident İlham Əliyev son 15 ildə gənclərin həyat səviyyəsinin yüksəlməsi üçün çoxlu sayda fərman və sərəncamlar imzaladığını, dövlət proqramları qəbul etdiyini bildirib. Təşkilat sədrinin sözlərinə görə, Cənab İlham Əliyevin gənclərə diqqət və qayğısı hər zaman böyük olmuşdur. O, bu uğurların davamı üçün gəncləri seçkilərdə fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbir Suraxanı rayon Gənclər və idman idarəsinin rəisi Amil Bağırov və Suraxanı rayon Gənclər Evinin rəhbəri Natavan xanım Rüstəmova və digələri çıxış edərək, əminlik ifadə edərək, bildiriblər ki, hər zaman dövlətə, dövlətçiliyə sədaqətli olan Suraxanı gəncləri yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər.

## Qax seçicilərinin devizi - “İlhamla irəli”dir



YAP Qax rayon təşkilatı prezident seçkilərində təbliğat-təşviqat kampaniyasını davam etdirir. 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Qax rayonu üzrə təbliğat-təşviqat kampaniyası çərçivə-



sində növbəti görüş dünən rayonun Tasmalı, Qarabaldır, Lələpaşa kəndlərinin seçiciləri ilə keçirilmişdir. Görüşdə YAP Mərkəzi Seki Qərargahının Qax rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Müzəffər Səfərov və Elxan Bayramov seçicilər qarşısında çıxış edərək, bildirdilər ki, son 15 ildə YAP-ın prezidentliyə namizədi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizdə tam siyasi sabitlik yaradılıb, bütün sahələr üzrə iqtisadiyyatımız sürətlə inkişaf edib, bölgələrin inkişafı üçün dövlət proqramları qəbul olunaraq, icra edilib və bu siyasət yenə də davam edəcəkdir. Çıxış edənlər 11 apreldə keçiriləcək prezident seçkilərində seçiciləri fəallıq nümayiş etdirərək Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə seçicilərdən Aydın Sərdarov, Bəxtiyar Habilov və Əhmədiyyə Əliyev çıxış edərək, qeyd etdilər ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan bugünkü inkişafa və tərəqqiyə nail olub. Biz qaxlılar öz Prezidentimizin gördüyü işləri alqışlayırıq və Onu çox sevirik və növbəti seçkilərdə də Cənab İlham Əliyevi Prezident görmək istəyirik.

## Seçicilər güclü LİDERƏ səs verəcəklər





Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Vəl-Vələ, Talabıqışlaq inzibati-ərazi dairələrində seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək bildirib ki, 2003-cü ildən bu günə qədər Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir: “Biz ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir və cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırıq”.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin təbliğat qrupunun üzvləri Həsən Günəşli, Allahverdi Xudaverdiyev və Habil Bayramlı çıxış edərək, seçiciləri ölkəmizin gələcək inkişafının qarantı, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdil şəkildə dəstək olmağa və səsvermə günü həmrəylik nümayiş etdirməyə çağırıblar.

Seçicilər də çıxışlarında artıq seçimlərini etdiklərin qeyd edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməklə sabitliyə, əmin-amanlığa və davamlı inkişafa səs vermiş olacaqlarını bildiriblər.

## Şəki seçiciləri davamlı inkişafa səs verəcəklər





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat - təşviqat kampaniyası çərçivəsində 3878 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Aşağı Göynük, Aşağı Layısqı, Köndələn və Abbas kəndlərində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə növbəti görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin müdirik və məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Aşağı Göynük, Aşağı Layısqı, Köndələn və Abbas kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Nuralı Çələbiyev, Qabil Qədimov və digərləri çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin xalq və dövlət üçün gördüyü əhəmiyyətli işlərdən ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən kənd sakinlərinin artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixində xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

# Xalq İlham Əliyevə “HƏ” deyir!

## Ucarlılar gələcək inkişafa “İlhamla irəli” deyir

Dünən Yeni Azərbaycan Partiyasının Ucar rayon təşki-





latı təbliğat-təşviqat qrafiki üzrə yerlərdə seçicilərlə görüşlərini davam etdirir. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri dünən seçicilərlə növbəti görüşü rayonun Ənvər Məmmədxanlı kəndlərinin seçiciləri ilə keçirmişdir.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevə yenidən etimad göstərməklə, həm bu günə kimi görülmüş işlərə yüksək qiymət vermiş, həm də Azərbaycanın gələcəyi, milli inkişaf istiqamətləri ilə bağlı Cənab Prezidentin planlarına birmənalı dəstəyini ifadə etmiş olacaqdır.

Görüşdə rayon təbliğat qrupunun üzvləri Alı Babayev, Rahib Rəsulov və Yaqut Zeynalova çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan və bu islahatların nəticəsi olaraq, əldə olunan çoxsaylı nailiyyətlərdən geniş bəhs etdilər. Çıxış edənlər bu uğurların davamlılığı üçün ucarlıları Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə seçicilər adından Aygün Kərimova və Faxrət Əsədov çıxış edərək qeyd etdilər ki, ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlik Azərbaycan vətəndaşlarının təhlükəsiz və rahat həyatının təmin edilməsinin əsasını təşkil edir: “Hamımız seçkilərdə iştirak edək və ən layiqli namizəd Cənab İlham Əliyevə səs verək!”

## Xaçmazlı qadın seçiciləri möhtəşəm gələcəyimizə səs verəcəklər



Yeni Azərbaycan Partiyasının “İlhamla irəli” şüarı ilə başladığı seçki kampaniyası çərçivəsində dünən YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsinin təşkilatçılığı ilə rayonun qadın seçiciləri ilə görüş keçirilib.



Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində, müstəqil Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf edib.

Rayon təşkilatının sədri qeyd edib ki, belə inkişaf dövrünü yaşayan ölkəmizdə dövlət-qadın siyasəti də uğurla həyata keçirilir. Hər bir Azərbaycan qadını bunu üzərində hiss edir. N.Ağayev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti nəticəsində, Azərbaycan qadınının elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurlarını diqqətə çəkərək, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətlərinin göz önündə olduğunu bildirib. O, möhtəşəm uğurlara və gələcək hədəflərə görə, Xaçmaz rayon qadın seçicilərini 11 aprel prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən qadın seçicilərdən Lalə Hüseynova, Pakizə Mehdiyeva, Kəmalə Sultanova, Vəfa Məmmədova və başqaları Cənab İlham Əliyevin ölkəyə başçılıq etdiyi dövrdə görülmüş işləri və uğurları diqqətə çəkərək, güclü və inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin böyük gücə və nüfuza malik olduğunu bildirdilər. Xaçmaz rayon qadın seçicilərinin Prezident İlham Əliyevin siyasətini, birmənalı tərzdə dəstəklədiklərini bildirərək, 11 apreldə demokratik şəraitdə keçiriləcək seçkilərdə Cənab İlham Əliyevə yüksək etimad göstərəcəklərini qeyd edib, yekdilliklə seçiciləri daha uğurlu gələcək naminə YAP-ın namizədinə səs verməyə çağırıblar.

## Qəbələlilərin seçimi Möhtərəm İlham Əliyevdir



Dünən Qəbələ rayonunun Çuxur-Qəbələ kəndində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti uğurlu görüşü keçirilib. Görüşdə qonşu Tola kəndindən olan seçicilər də fəal iştirak edib.

Görüşdə giriş nitqi söyləyən YAP Qəbələ rayon təşkilatının sədr müavini, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Elçin Tağıyev Azərbaycanda son 15 il ərzində görülən işlər, həyata keçirilən layihələr haqqında məlumat verib, ölkəmizdə yeni zavod və fabriklərin, məktəblərin, müasir tipli xəstəxanaların, uşaq bağçalarının tikilməsi, yol infrastrukturunun daha da inkişaf etdirilməsi və yeni körpülərin tikilməsini iqtisadi uğurlarımızın göstərici adlandırıb. Elçin Tağıyev bütün seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək



prezident seçkilərində hamılıqla iştirak etməyə, son 15 ildə ölkəmizi tərəqqiyə, xalqımızı firavanlığa aparan Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizəd Möhtərəm İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Qudrət Səmədov vurğulayıb ki, Cənab İlham Əliyevin rəhbərlik etdiyi illər tariximizə iqtisadi yüksəliş illəri kimi daxil olub. 2003-2018-ci illərdə əhalinin nominal gəlirləri 8,6 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. İşsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi 5,4 faizə enib və 250 min məcburi köçkün mənzillə təmin olunub. Ölkənin inkişafının, insanların rifahı naminə həyata keçirilən islahatların prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramının əsas mahiyyətini təşkil etdiyini diqqətə çatdıran Qudrət Səmədov bütün seçiciləri Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə iştirak edən kənd sakinlərindən Əlihüseyn Şərifov, Əliyusif Yusifov, Nigar Məmmədova, Əsəd Səlimov, Eyzangül Hüseynova, Rafiq Şərifov, Arzu İsrəfilova, Xəyal Məmmədov və Müşviq Əzizov çıxış edərək, seçimlərini etdiklərini və seçki günü məntəqələrə gələrək, Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Xaçmazlı gənclərin seçimi Cənab İlham Əliyevdir





Yeni Azrəbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon gəncləri ilə görüş keçirib.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-9

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq, bildirib ki, ümumxalq səsverməsində siyasi iradəsini nümayiş etdirmək hər bir gəncin həyatında tarixi hadisədir. O, gəncləri seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai sabitliyin davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırdı.

Görüşdə çıxış edən gənc seçicilər Ülkər Lətifova, Rəhman Ağayev, Gülnar İsayeva, Aygün Osmanova və başqaları Möhtərəm Prezidentimiz ətrafında sıx birləşdiklərini qeyd ediblər. Cənab İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdən bugünədək həyata keçirdiyi dövlət-gənclər siyasətinə diqqət yetirərək, onlar üçün ölkə daxilində yaradılan imkanları vurğuladılar. Ümumxalq namizədi Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin Azərbaycan gəncləri tərəfindən yekdilliklə dəstəkləndiyi bildirdilər və xaçmazlı gənclərə "İLHAMLA İRƏLİ!" səslənərək, 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsinə çağırdılar.







Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edib. Bildirib ki, Azərbaycan son 15 ildə Cənab İlham Əliyevin rəhbərliyi ilə dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Rayon təşkilatının sədri əlavə edib ki, Azərbaycan cəmiyyətinin nümayəndələri ölkəmizin inkişafından və mövcud ictimai-siyasi sabitlikdən məmnundurlar: "Əminliklə söyləyə bilərəm ki, bu seçkilərdə də seçicilər Azərbaycanın gələcək inkişafı, firavanlığı naminə Cənab İlham Əliyevə səs verəcəklər. Azərbaycan seçicisinin seçimi birmənalıdır".

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin üzvlərindən - Emin Əzimli, Səyyaf Abbasov, Siyavuş Hidayətov və Nəsimi Zahidov çıxış edərək, ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Cənab İlham Əliyevin daim xalqımıza göstərdiyi yüksək diqqət və qayğıdan danışıblar. Natiqlər dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən Oğuz seçicilərini 11 apreldə seçkilərə gələrək, inamlı sabahımıza səs verməyə çağırıblar.

Tədbirdə Sincan kənd tam orta məktəbi ərazi ilk partiya təşkilatının sədri Ələddin Həbibullayev, kənd sakinləri Məhəmməd Ömərov, Vaqif Səbzəliyev, Atamoğlan Məmmədov və başqaları çıxış edərək Azərbaycanın daha inkişaflı tərəqqi yolunu keçməsi, xalqın daha firavan həyatının təmin olunması naminə hər kəsin, məhz Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

* * *





11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Oğuz rayonun Fil-filli kəndində seçicilərlə görüş keçirilib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə respublikamızın dinamik inkişafına nail olunduğunu və möhtəşəm uğurlara imza atıldığını söyləyib. S.Məhərrəmov çıxışının sonunda seçkilərdə Vətənini və dövlətini sevən hər bir vətəndaşın Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə təbliğat-təşviqat qrupunun üzvlərindən Emin Əzimli, Səyyaf Abbasov, Nizami Əhmədov və Elnur İsrafilov çıxış edərək, 11 aprel taixində səsvermə hüququ olan hər bir rayon sakininin fəallıq nümayiş etdirməsinin vacibliyindən danışıb. Natiqlər əmin olduqlarını bildiriblər ki, oğuzlu seçicilər bu seçkilərdə yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər.

Seçicilər adından çıxış edən Nəsirov Akif, Eyyubov Ovçu, Rəhimov Məhəmməd, Mikayılov Mürvət bildiriblər ki, onlar hər zaman Yeni Azərbaycan Partiyasının siyasi dəst-xəttini bəyəniblər və bu gün də bu, belədir. Odur ki, aprel ayının 11-də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

## Ağdaşlıların seçimi Cənab İlham Əliyevdir





Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunda növbəti görüşlər Ləki qəsəbəsi, Yuxarı Ləki, Yenicə, Güvəkənd və Binələr kəndlərindən olan seçicilərlə keçirilib.

Görüşləri Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, Milli Məclisin deputatı Cavid Osmanov açaraq bildirib ki, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlardan, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı nailiyyətlərdən danışıb. C.Osmanov əldə olunan uğurların davamı üçün Ağdaş seçicilərinin ölkə başçısının ətrafında birləşərək, 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərinə əminliyini bildirib.

Seçicilərlə keçirilən görüşlərdə Sədaqət Aşurova, İnqilab Musayev, Məmmədsöyün Rüstəmov, Misir Misirov və Gülcənnət İsmayılova hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş Cənab İlham Əliyevain namizədliyini dəstəklədiklərini vurğulayıblar.

Görüşdə təbliğat qrupunun üzvləri Tənzilə Şıxıyeva və İsa Eminov çıxışlarında seçiciləri 11 apreldə mütəşəkkil halda birləşərək Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

## Oğuzlular "İlhamla irəli" deyir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsi prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Sincan, Tərkəş, Mollalı və Dəymədağlı kəndlərindən olan seçicilərlə keçirilib.

## Zaqatalada prizdentliyə namizəd İlham Əliyevin təbliğat-təşviqat kampaniyası davam edir







Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi 11 aprel prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Muğanlı və Dağlı kənd secicilərı ilə görüşlər keçirib. Görüşdə 600 nəfər seçici iştirak edib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Zaqatala rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Habil Qurbanov ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm tarixi nailiyyətlərdən və ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən danışıb. H.Qurbanov bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, seçiciləri bu firəvan həyatın davamlığı üçün Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvlərindən Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva, Namidə Süleymanova və başqaları çıxış edərək, bildiriblər ki, respublikamız gün-gündən inkişaf edir. Əldə olunan nailiyyətlərin bundan sonra da davam etdirilməsi üçün hamılıqla 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi, hər bir azərbaycanlının taleyini düşünən Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Muğanlı və Dağlı kənd ağsaqqalları Nəzir Süleymanov, Məmməd Zəbibullayev və ziyalılar Bağdagül Məmmədova, Vahidə Mehdiyeva və Yusif Şahmaliyev kənd seçiciləri adından çıxış edərək, bildiriblər ki, prezident seçkilərində yekdilliklə siyasi sabitliyimizin qarantı olan Cənab İlham Əliyevə səs verərək, daha böyük qələbələrə doğru "İlhamla irəli" gedəcəklər.

Ardı Səh. 11

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-10

### İsmayıllılar Cənab İlham Əliyevin namizədliyini dəs təkləyəcəklər






Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat - təşviqat kampaniyası çərçivəsində İsmayıllı şəhərində gənclərlə, o cümlədən, rayonun Təzəkənd və Talıstan kəndlərində seçicilərlə görüşlər keçirilib.

Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Sevil Əhmədova çıxış edərək qeyd edib ki, Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev ən yeni tarixin qarşıya qoyduğu siyasi-sosial sifarişlərin yerinə yetirilməsi üçün kompleks tədbirlər proqramının müəllifi kimi siyasi-iqtisadi sabitliyin möhkəmlənməsinə baza yaradıb: “Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb”.

Tədbirdə Milli Məclisin deputatı Novruzəli Aslanov, Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat İnstitununun direktoru Misir Mərdanov çıxış edərək bildiriblər ki, Cənab Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir.

İsmayıllı gəncləri adından Qönçə Ağazadə, Tacəddin İbadov, İbrahim Əhmədov, Əkbər Şəfaqətov, Anar Həsənov, Əlirza Hüseynov, Təzəkənd kənd sakinləri Ağalar Bədəlov, Hacalı Səlimov, Ömər Şərifov, Talıstan kənd sakinləri Aydın Əzizov, İradə Hüseynova, Tamam Cəbiyeva çıxış edərək, son illərdə Azərbaycanın dünyada sürətli inkişaf edən dövlətə çevrildiyini, dövlət başçısının həyata keçirdiyi tədbirlər sayəsində bütün sahələrdə uğurlar qazanıldığını vurğulayıblar.

Çıxış edənlər İsmayıllı seçiciləri qarşıdan gələn prezident seçkilərində ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir və cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırıblar.

### Qobustanlılar “İlhamla irəli” deyir

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Poladlı, Yekəxana və Təsi kənd seçiciləri ilə görüş keçirib. Görüşlərdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin son 15 il ərzində ölkə rəhbəri kimi respublikamızın dina-






mik inkişafı naminə gördüyü işlər və Azərbaycanın beynəlxalq aləmdə gündən-günə möhkəmlənən nüfuzu haqqında ətraflı məlumat verib. Füzuli Gülaliyev vurğulayıb ki, biz bu gün düzgün seçim etməklə, qarşıdakı illərdə də bunların bəhrəsini görəcəyik və inanıram ki, seçicilərimiz düzgün siyasətə, güclü liderə, Cənab İlham Əliyevə səs verəcəklər.

Füzuli Gülaliyev hər kəsi 11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin üzvü Atabəy Cahangirov ölkəmizdə gedən sürətli inkişaf, həmçinin Cənab İlham Əliyevin daim xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışaraq, dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən kənd seçicilərini 11 apreldə məntəqələrə gəlməyə, “İlhamla irəli” devizi altında birləşərək, İlhamlı sabahımıza səs verməyə çağırıb.

Görüşdə rayon əmək və müharibə veteranları şurasının sədri, təbliğat-təşviqat qrupunun üzvü Abdulhəsən Ağayev də çıxış edərək, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının Cənab İlham Əliyev yeni mərhələdə uğurla davam etdirməsi bu gün müstəqil Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətlərindən birinə çevirdiyini diqqətə çatdıraraq, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin xoşbəxt gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə hamını Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə seçicilər adından çıxış edən kənd sakinləri Nurbala Zeynalov, Qurban İsmayılov, Həbil Hüseynov, Ağamurad Ağayev və başqaları - ölkəmizin inkişafının davamlı olması üçün Yeni Azərbaycan Partiyasının layiqli namizədinə, bütün xalqın sevimlisi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

### Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatı prezident seçkiləri ilə əlaqədar təbliğat kampaniyasını uğurla davam etdirir




Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatı prezident seçkiləri ilə əlaqədar təbliğat kampaniyasını uğurla davam etdirir. 30 mart 2018-ci il tarixdə rayon təşkilatının təbliğat qrupunun üzvlərinin rayonun Günəhir,Bəliton və Türkəncil kəndlərində yaşayan seçicilər ilə görüşü oldu.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Lənkəran rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Ağacəfər Fətullayev qeyd etdi ki, yaranan iqtisadi potensialın güclənməsi, infrastruktur və investisiya layihələrinin müxtəlif sahələri əhatə etməsi, əhalinin müxtəlif təbəqələri arasında fərqlərin azaldılması, qeyri-neft sektorunun inkişafı ilə bağlı hədəflərin reallaşması son 15 ildə görülən işlər, əldə olunan uğurlu nəticələr Azərbaycanın dünyaya özünün inkişaf modelini təqdim etməsinə əsas verir. İnkişafın Azərbaycan modelinin mövcudluğu uğurlu siyasətin göstəricisidir. Qeyri-neft sektorunun sürətlə genişlənməsi, Azərbaycanda sənayeləşmə prosesinin davam etməsi, iqtisadi zonaların yaradılması ölkənin inkişafını daha da sürətləndirir.



Azərbaycan xalqının hazırda kifayət qədər populyar, işgüzar, praqmatik, tolerant bir lideri - İlham Əliyev var və ölkəmizin ikinci liderə qətiyyən ehtiyacı yoxdur. Bu liderə qarşı çıxmaq istəyən partiya və siyasi qüvvələrin nəsibi birmənalı şəkildə məğlubiyyət olacaq. O qüvvələrin yalnız “inqilabi” təcrübə toplamaq məqsədi ilə kiçik qruplar halında toplaşıb siyasi imitasiyaya gücləri çatar. YAP-ın liderini - Prezidentimizi butun Azərbaycan xalqı sevir və ona inanır, güvənir. Hamını bir nəfər kimi prezidentimizi dəstəkləməyə və ona olan sevgi və məhəbbətimizi aprelin 11-də təsdiqləməyə dəvət edirəm! Tədbirdə təbliğat-təşviqat qrupunun üzvlərindən Sərhad Məmmədov,Kamran Kazımov, kənd sakinlərindən Hacıhəsən Seyfullayev və Tofiq Fərəcov çıxış edərək seçiciləri 11 Aprel 2018-ci ildə keçiriləcək Prezident seçkilərində fəal iştirak etməyə və YAP-ın vahid namizədi Cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırdılar.

### Lerik rayonunun Züvüç və Osyodərə kəndlərində seçicilərlə görüş keçirilib





11 aprel 2018-ci il tarixdə keçiriləcək Prezident seçkiləri ilə əlaqədar YAP Seçki Qərargahının Lerik rayon şöbəsi təbliğat-təşviqat prosesini uğurla davam etdirir. Kampaniya çərçivəsində rayonun Züvüç və Osyodərə kəndlərində seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Lerik rayon təşkilatının təbliğat qrupunun sədri Cəlil Baxşıyev, qrup üzvləri E.Qənbərov, H.Bəşirov və E.Rəcəbov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə qazanılan nailiyyətlərdən danışıblar. Natiqlər bu nailiyyətlərin davamlı olması üçün 11 apreldə seçiciləri cənab İlham Əliyevə səs verməyə çağırıblar.

# Azərbaycan xalqı Prezident İlham Əliyevin siyasətini qətiyyətlə dəstəkləyir



## Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudovun yap.org.az-a müsahibəsi

***- Yaqub müəllim, Azərbaycanda aprelin 11-də prezident seçkiləri keçiriləcək. Seçkiöncəsi mühiti və mövcud ictimai-siyasi vəziyyəti necə qiymətləndirirsiniz?***

- İnanırıq ki, aprelin 11-də Azərbaycan seçicilərinin böyük əksəriyyəti səsvermədə iştirak edərək İlham Əliyevin lehinə səs verəcək. Belə qənaətə gəlməyin əsas səbəbi odur ki, İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadi, sosial və digər sahələrdə böyük inkişaf mərhələləri keçib, insanların həyat şəraiti yüksəlib və ölkəmizin beynəlxalq aləmdə mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənib. Bu reallıqlar İlham Əliyevin siyasi reytinqini kifayət qədər yüksək səviyyəyə qaldırıb. Xalqımız bu siyasəti qətiyyətlə dəstəkləyir.

Qlobal siyasi və hərbi kataklizmlərə baxmayaraq, Azərbaycan sabitlik adası olaraq qalmaqdadır. Ulu öndər Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin daha da inkişaf etdirdiyi Azərbaycan Respublikası Cənubi Qafqazın aparıcı dövlətinə çevrilib. Hazırda Azərbaycan dünyanın həsəd aparacağı ölkələrdən biridir. İctimai-siyasi sabitlik və əmin-amanlıq Azərbaycanın inkişafının təməl prinsiplərindən biridir.

Həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatımız yeni keyfiyyət mərhələsinə daxil olub. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb.

Seçkilər hər bir demokratik ölkənin həyatında mühüm siyasi hadisə sayılır. Təəssüf ki, biz bu dönəmdə də Azərbaycana qarşı bəlli siyasi mərkəzlərin həyata keçirmək istədikləri qarayaxma cəhdlərini görürük. Lakin Azərbaycan cəmiyyəti ayıqdır.

Beləliklə, Azərbaycanda növbəti prezident seçkiləri ərəfəsində cəmiyyətimizin iqtisadi, ictimai-siyasi, mənəvi-psixoloji durumu və mənzərəsi kifayət qədər ürəkaçandır. Ən başlıcası isə, insanlar inkişafımızın davamlı olduğunu bilir və optimist hisslər formalaşır. Bir sözlə, mövcud ictimai-siyasi mənzərə özündə yüksək əhval-ruhiyyəni ehtiva edir.

Bu gün Azərbaycan cəmiyyətini narahat edən yeganə məsələ torpaqlarımızın bir qisminin işğal altında olmasıdır. Dağlıq Qarabağ münaqişəsinin bugünə qədər nizama salınmaması hər bir vətəndaşımızı dərindən narahat edir. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - Rusiya, ABŞ və Fransa öz mövqelərini qəti şəkildə bildirməlidirlər. Beynəlxalq güc mərkəzləri və müvafiq təşkilatlar Ermənistanın işğalçı faşist rejiminə təzyiq göstərmir.

***- Prezident İlham Əliyevin xalqımız və dövlətimiz qarşısındakı mühüm xidmətlərindən biri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə müvəffəqiyyətlə çatdırılmasıdır. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan həqiqətləri, o cümlədən tarixi reallıqlar dünya ictimaiyyətinə çatdırılıb. Ulu öndər Heydər Əliyev kimi, Prezident İlham Əliyev də tariximizə sahib çıxan, onu dirçəldən, qoruyan, inkişaf etdirən dövlət başçısı və tarix yaradan tarixi şəxsiyyətdir. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi-tədqiqat fəaliyyəti də ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında son 14 ildə Tarix İnstitutunda 400-dən çox tədqiqat əsəri işıq üzü görüb.

İlham Əliyev xalqımıza "26 Bakı komissarları" adı ilə təqdim olunmuş və Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törətmiş Stepan Şaumyan və digər cəlladların cəsədlərinin qalıqlarını Bakının mərkəzindən şəhər qəbiristanına köçürtməklə şuurlarda inqilab edib. Ulu öndər Heydər Əliyevin vəsiyyətinə əməl olunaraq, İlham Əliyevin prezidentliyi dövründə Tarix İnstitutu ikicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nı çap etdirib. Bu ensiklopediya Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bütün sahələrini əhatə edən ilk fundamental elmi soraq əsəridir.

Prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hər il 28 May - Respublika Günündə ölkəmizin qabaqcıl elm və mədəniyyət xadimlərinə, ziyalılarına dövlət mükafatları təqdim olunur. 2012-ci ildəki ənənəvi qəbulda Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun 13 əməkdaşına Azərbaycan Respublikasının Dövlət Mükafatı verilib.

Azərbaycan Prezidentinin sayəsində tarix elmini müstəqil inkişaf yoluna çıxara bilmişik. Biz keçmişdə qadağan edilən mövzulara onlarla əsər həsr etmişik və saxtalaşdırılmış məsələlərə yenidən baxmışıq. İnstitut "Azərbaycan tarixi atlası"nı buraxıb, "Azərbaycanın milli atlası"na isə 85 tarix xəritəsi daxil edib. İrəvan xanlığının tarixini araşdırmaqla ermənilərə dünya miqyasında sübut etmişik ki, bugünkü Ermənistan dövləti Azərbaycanın tarixi torpaqlarında yaradılıb.

Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi dövlətçilik tariximizlə bağlı atılan mühüm addımlardandır. İnstitutda Xalq Cümhuriyyətinin tarixini araşdıran ayrıca şöbə fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrindən Xalq Cümhuriyyəti tarixinə dair ilk mənbələr və arxiv sənədləri ölkəmizə gətirilir. Son illərdə nəşr olunmuş onlarla fundamental tədqiqat, o cümlədən "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı müxtəlif dünya dillərinə tərcümə olunaraq xarici ölkələrdə yayılıb.

Prezidentin təşəbbüsü və himayəsi altında hər il Azərbaycanda dünya tarixçilərinin Beynəlxalq soyqırımı konfransları keçirilir. Tarix İnstitutu Bakıda, Şamaxı və Quba qəzalarında, Qarabağda, Zəngəzurda, İrəvan quberniyasında, Naxçıvanda, Şərqi Anadoluda və Urmiya bölgəsində erməni-daşnak quldurlarının törətdiyi soyqırımlarıyla bağlı ayrı-ayrılıqda monoqrafiyalar çap etdirib.

***- Azərbaycan Prezidenti bütün milli məsələlərdə, o cümlədən ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli mövqe nümayiş etdirir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Prezident İlham Əliyev hər zaman yüksək beynəlxalq tribunalardan Ermənistanın işğalçılıq siyasətini ifşa edir və bəyan edir ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verilməyəcək.

Prezidentimizin dəfələrlə "Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır" fikrini irəli sürməsi ölkəmizin milli mənafelərinin qorunması şərtilə Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həll olunacağına ümidləri daha da artırır.

Dağlıq Qarabağ probleminin yoluna qoyulması ilə bağlı rəsmi Bakının təklifləri konstruktivdir. Bu, ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməli, işğalçı Ermənistanın hərbi qüvvələri zəbt olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan çıxmalıdırlar. Öz ata-baba yurdlarından məcburi köçkün düşmüş soydaşlarımız isə doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Yalnız bundan sonra Dağlıq Qarabağın gələcək statusu barədə danışmaq olar. Prezident İlham Əliyev 2016-cı ildə "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində Dağlıq Qarabağ problemi ilə bağlı bunları deyib: "Azərbaycanın ərazi bütövlüyü diskussiya mövzusu deyil və ola da bilməz. Biz Dağlıq Qarabağa müstəqillik verilməsinə heç vaxt razı olmayacağıq və erməni tərəfi bunu çox gözəl bilir. Lakin ağlabatan kompromis mümkündür: Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət - biz münaqişənin nizamlanmasını belə görürük".

Bugünkü Azərbaycan XX əsrin 90-cı illərinin Azərbaycanı deyil. 2016-cı ilin aprel döyüşlərində düşməni əzən, hərbi baxımdan xeyli sayda strateji yüksəklikləri, ümumən isə 2 min hektara qədər işğal altında olan ərazimizi azad edən Azərbaycan ordusu isə inkişaf edən Azərbaycanın real mənzərəsidir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan ordusu bir çox məsələlərin həlli üçün ciddi potensiala malikdir. Bəli, Azərbaycan Ermənistan qarşısında böyük hərbi üstünlüyə malikdir.

Əsas məqsədimiz işğal olunmuş torpaqları düşmənlərdən təmizləmək və ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir. Biz tarixçilər inanırıq ki, xalqımız nəinki Qarabağdakı yurd yerlərinə, həmçinin gələcəkdə İrəvan, Zəngəzur və Göyçə ellərinə də qayıdacaq. İlham Əliyevin ətrafında sıx birləşməklə biz bu qələbələrə hökmən nail olacağıq.

***- Yaqub müəllim, mövcud reallıqlar və perspektiv hədəflər fonunda, sizcə, aprelin 11-də Azərbaycan xalqının seçimi necə olacaq?***

- Azərbaycan xalqı Prezident İlham Əliyevin siyasətini qətiyyətlə dəstəkləyir. İlham Əliyevin əsas təbliğatçısı son 15 ildə əldə olunan böyük uğurlardır. Vətəndaşlarımız bu uğurları öz həyatlarında hiss edirlər. Biz insanların bu əhval-ruhiyyəsini bilirik və buna istinad edərək xalqın İlham Əliyevə səs verəcəyinə əminik. İlham Əliyevə səs vermək Azərbaycanın tarixinə sahib çıxmağa və inkişafımızın davamlı olmasına səs verməkdir. Xalqımızı Prezident İlham Əliyevin ətrafında sıx birləşməyə səsləyirəm.

Müasir inkişafın Azərbaycan modeli ilə bu gün bütün dünya maraqlanır. Bu modelin müəllifi isə Heydər Əliyevin siyasi varisi olan dövlətimizin başçısı İlham Əliyevdir. Bütün xalqımızı 11 apreldə keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevə - davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə səs verməyə çağırıram!

## "Astara-Rəşt dəmiryolu Azərbaycan və İran üçün xüsusi əhəmiyyətə malikdir"



"Ümumiyyətlə İran-Azərbaycan münasibətləri son vaxtlar yüksək əməkdaşlıq səviyyəsində davam etdirilir. Tendensiyalar elədir ki, bizim həm müştərək işlərimiz, həm də ikitərəfli əlaqələrimiz sözün həqiqi mənasında inkişaf etməkdədir". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib.

Onun sözlərinə görə, şimal-cənub dəhlizində İranın iştirakı belə Azərbaycan və İran üçün çox mühüm əhəmiyyət kəsb edir: "Astara-Rəşt dəmiryolunun çəkilişi də iki ölkə üçün xüsusi əhəmiyyətə malikdir. Bildiyiniz kimi Xəzərin hüquqi statusu ilə bağlı yaranan müəyyən problemləri bu gün artıq İran və Azərbaycan öz arasında həll etməklə birgə yataqlar deyilən o yataqlardan insanların rifahı üçün istifadə edəcəklər. Digər məsələ isə kənd təsərrüfatı istiqamətində İranın Azərbaycanda müştərək müəssisələrinin yaradılmasıdır, avtomobil zavodunun tikilməsidir. Yəni bütün bunlar hamısı İranla Azərbaycanın yaxınlaşması deməkdir. Təbii ki, iqtisadi problemlərin həlli eyni zamanda siyasi məsələlərin müsbət həllinə gətirib çıxarır. Unutmaq lazım deyil ki, İranda 30 milyondan artıq bizim həmvətənlərimiz yaşayır. Təbii ki, bunlar da həm mədəni, həm də digər əlaqələrlə ölkəmizlə sıx münasibətlər saxlayırlar.

Son vaxtlar kütləvi informasiya vasitələrində (KİV) və digər yerlərdə İranla-Ermənistanın mühüm əlaqələrinin olması ilə bağlı qabartmalar həddindən artıq çoxalmışdı. Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevlə İran prezidenti Həsən Ruhaninin görüşündən sonra bu məsələlərə də müəyyən qədər aydınlıq gəldi. Yəni iqtisadi məsələlər vasitəsilə biz siyasi məsələlərimizi müsbət istiqamətdə həll edə bilərik. Bəlkə Ermənistanı təcrid edə bilərik və Dağlıq Qarabağ münaqişəsinin həllində də müəyyən addımlar ata bilərik. Ona görə də İranın Azərbaycanla əlaqəsinin möhkəmlənməsi həm vətəndaşlarımızın rifahı üçün, həm də regionda siyasi, iqtisadi və hətta deyərdim ki, hərbi məsələlərin həllində müsbət rol oynayacaqdır".

# 1918-Cİ İLİN 31 MARTI: TÜRK MÜSƏLMAN SOYQIRIMI

***Giriş:** Əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən erməni millətçiləri monoetnik və "türksüz Ermənistan" yaratmaq uğrunda gizli və leqal müharibələr aparmış, "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq üçün türk xalqlarına qarşı soyqırımı siyasəti yeritmişlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamında deyilir:"Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl-1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhərlərdə və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmişdir."*



XX əsr Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan mart faciəsi ilə bağlı müəyyən tədqiqatlar aparılmışdır. Çox təəssüf ki, bu dəhşətli hadisə sovet tarixşünaslığı tərəfindən saxtalaşdırılmış, mili qırğın vətəndaş muharibəsi, sinfi mübarizə adı ilə uzun müddət xalqa yanlış şəkildə təqdim olunmuşdur. Hətta hadisələrin cərəyan etdiyi dövrdə belə "Naş qolos" qəzetindən başqa Azərbaycanın bütün bolşevik təmayüllü mətbuatı mart qırğınını "vətəndaş müharibəsi" kimi qiymətləndirdi. "Naş qolos" qəzeti bu hadisəyə erməni-türk xalqlarının milli ədavəti kimi qiymət verdi. Bakıda və Azərbaycanın digər bölgələrində baş verən 1918-ci ilin mart-aprel hadisələrini obyektiv tədqiq edən Amerika tarixçisi R.Syuni "Bakı Kommunası", "1917-1918-ci illər Rus inqilabında sinif və millət" adlı monumental tədqiqatında qeyd etmişdir ki, Zaqafqaziyada, xüsusilə Bakıda inqilabi mübarizə sinfi mahiyyət daşımamış, millətlərarası müharibə zəminində baş vermişdir.

S.E.Sef mart hadisələrində ayrı-ayrı partiyaların fəaliyyətini və bolşeviklərin hakimiyyət uğrunda apardığı mübarizənin xronologiyasını izləyərək bu nəticəyə gəlir ki, mart hadisələrini heç cür Bakı Oktyabrı adlandırmaq olmaz.

Son illərdə Azərbaycan tarixçiləri tərəfindən bu sahədə mühüm elmi tədqiqatlar aparılmış, yalnız dini və etnik mənsubiyyətə görə azərbaycanlıların bolşevik- daşnak hərbi dəstələri tərəfindən vəhşicəsinə və xüsusi amansızlıqla qətlə yetirilməsi çoxsaylı arxiv sənədləri və materialları əsasında sübuta yetirilmişdir.

Oktyabr inqilabından sonra Qafqazın sovetləşdirilməsi problemi Rusiya bolşeviklərinin qarşısında duran aktual məsələlərdən idi. 1917-ci il dekabr ayında Petroqrad Xalq Komissarları Soveti öz iclasını "Qafqazda vəziyyət haqqında" məsələyə həsr etmiş və Bakı Sovetinin sədri S. Şaumyan "Qafqaz və Qərbi Ermənistan üzrə fövqəladə komissar" təyin olunmuşdur. Bunun ardınca Bakı Soveti rəhbərliyi şəhərdə Qızıl Ordu hissələri adı ilə erməni qoşun birləşmələrini yaratmağa başladılar. Bu iş erməni siyasi və hərbi xadimlərinin nəzarəti altında icra olunurdu. Daşnak Z.Avetisyan Qızıl Ordunun qərargah rəisi, Hamazasp üçüncü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri vəzifələrini icra edirdilər.

1918-ci ilin yanvar ayında müsəlman korpusunun qərargahı başda general M.K.Talışinski olmaqla Bakıya gəldi. Qərargahın rus zabitləri arasında əvvəllər jandarmeriyada xidmət etmiş şəxslərin olması bəhanəsilə müsəlman korpusunun qərargah üzvlərinin əksəriyyəti başda general M.K. Talışinski olmaqla əksəriyyəti erməni əsgərlərindən ibarət bolşeviklər tərəfindən həbs edildi. Müsəlman korpusunun qərargahının həbs edilməsindən istifadə edən erməni millətçiləri azərbaycanlıları bolşeviklərə qarşı silahlı üsyana təhrik edirdilər. Lakin azərbaycanlılar bu təxribata getmədilər. Bu qarşıdurmadan istifadə etmək marağında olan erməni daşnakları şəhərin türk-müsəlman əhalisi ilə ermənilər və bolşeviklər arasında silahlı toqquşma yaratmaq istədilər. Lakin Azərbaycanın ziyalı və siyasi xadimlərinin ciddi səyi nəticəsində bu toqquşmanın qarşısı alındı. Mitinq və yığıncaqlarda çıxış edən M.Ə.Rəsulzadə, N.Nərimanov, N.Yusifbəyli və başqa siyasi şəxsiyyətlərin bu istiqamətdəki fəaliyyəti səmərəsiz qalmadı. Lakin erməni millətçiləri rus-xristian əsgər və matrosları arasında türk-müsəlman icmasına qarşı nifrət ruhunda təbliğat aparır, hər vasitə ilə sülhə, barışığa mane olmağa çalışırdılar. Artıq 1918-ci ilin ilk aylarında Bakıda 8 mindən artıq erməni qoşun birləşmələri yaradılmışdır. Hətta İrandan və Qafqaz cəbhəsindən Rusiyaya qayıdan rus əsgərlərinin müəyyən hissəsi də bu dəstəyə qoşulmuşdu. Qırğın ərəfəsində erməni silahlı qüvvələrinin sayı 20 min nəfərdən artıq idi. Bundan əlavə rus ordusu inqilab ərəfəsində Qafqazdan çəkilən zaman ordunun bütün silah və təchizatı erməni daşnaklarının əlinə keçmişdir.

Tarixi fakt və sənədlərin araşdırılması mart qırğınının qabaqcadan düşünülmüş, planlı surətdə hazırlanmış və həyata keçirilmiş bir soyqırım olduğunu sübut edir. Qanlı hadisənin başlanmasından bir qədər əvvəl Bakı Sovetinin iclaslarında və digər yığıncaqlarında S.Şaumyan, M.Ə.Rəsulzadə və A.Kazımzadəni təhlükəli şəxslər kimi qiymətləndirir, onlara məxsus silahlı qüvvələrin Türkiyə sultanına arxalandığı fikrini təbliğ edirdi.

1918-ci il mart ayının 15-də S.Şaumyan Bakı Sovetinin iclasında çəkinmədən: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir", - deyə bəyan etmişdi. Bir gün əvvəl mart ayının 14-də S.Şaumyanın əmri ilə erməni Əmirovun komandanlığı altında Şamaxı şəhərinə bolşevik silahlı birləşmələri göndərildi. Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Toqquşmanı başlamaq üçün bəhanə bu ərəfədə məşhur Azərbaycan milyonçusu və mesenatı H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 nəfər hərbiçinin döyüş dostlarının dəfn mərasimində iştirak etmək üçün Bakı şəhərinə gəlişi oldu. Dəfndən sonra zabitlər həmin gəmi ilə geri qayıtmalı idilər. Erməni daşnakları əsgər və motroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şaiyə yaydılar ki, "Evelina"dakı zabitlər Muğandakı molokan kəndlərini dağıtmaq üçün Müsəlman Milli Şurasından xüsusi göstəriş almışlar. Erməni daşnaklarının əli ilə şəhərin müxtəlif yerlərində azərbaycanlılar əleyhinə mitinq və yığıncaqlar keçirilməyə başlandı. Bakıda yerləşən bütün qeyri-türk siyasi birlikləri və hərbi qüvvələri "Evelina" gəmisinin tərksilah edilməsi tələbini irəli sürdülər. Paraxodun körpüdən aralanmağına az qalmış silahlı erməni bolşevikləri müsəlman divizionundan tərksilah olunmağı tələb etdilər. Divizion rədd cavabı verdikdə, ermənilər gəmiyə pulemyotlardan və tüfənglərdən atəş açmağa başladılar. Erməni əsgərləri gəmini ələ keçirib, oradakı azərbaycanlı hərbçiləri həbs etdilər, gəmidəki silahları və hərbi sursatı müsadirə etdilər.

Mart ayının 30-da döyüşlərə rəhbərlik üçün S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan və M.Yolçiyan daxil olmaqla Bakı Soveti yanında inqilabi müdafiə komitəsi yaradıldı.

Həmin gün saat 5-də erməni daşnakı Saatsadbekovun süvari dəstəsinin erməni kilsəsi yanında mitinqdə iştirak edən azərbaycanlılara tərəf açdıqları ilk atəş Azərbaycan türklərinin üzləşdiyi soyqırımının başlanğıcı oldu. Yaxşı silahlanmış və təlim görmüş erməni əsgərləri pulemyotların atəşi altında əhalisi tamamilə azərbaycanlılardan ibarət olan "Məmmədli" və "Zibilli dərə" deyilən yerlərdə azərbaycanlıların evlərinə soxulur, sakinləri süngü və xəncər ilə doğrayır, körpə uşaqları yanan evlərin içərisinə atır, üç-dörd günlük körpələri süngülərin ucuna keçirirdilər. Azərbaycanlıları görünməmiş bir amansızlıqla qətlə yetirir, onların evlərini qarət edir, sonra isə od vurub yandırırdılar. Azərbaycanlı qadınları öldürür, çalalara doldurarak üzərlərini torpaqlayırdılar. Sonralar təkcə bir çaladan burun və qulaqları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadınının meyiti tapılmışdır.

Şəhərin azərbaycanlılar yaşayan digər hissələrində də hücuma keçən erməni daşnaklar nə cinsə, nə də yaşa əhəmiyyət vermirdilər. Məsələn, Hacı Əmir Əliyevin evinə soxulan ermənilər onu - 80 yaşlı qocanı, 60 və 70 yaşlı arvadlarını öldürüb, üç azyaşlı uşağı doğramış, onun 25 yaşlı gəlinini diri-diri divara mıxlamışdılar.

Nikolay küçəsi (indiki İstiqlal küçəsi) ilə hücuma keçən ermənilərə, əsasən, erməni ziyalıları rəhbərlik edirdilər. Belə dəstələrdən biri bir evə girib 8 qadın və uşağı güllələmişdilər. Başqa bir dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək 9 nəfər azərbaycanlı ziyalını kilsə meydanında güllələmişlər .

Əcnəbi jurnalist olan M.Kulqe həmin dəhşətli soyqırımını belə şərh edirdi: "Kimsəyə rəhm edilmirdi. Cocuqlara rəhm edilmədiyi kimi, ixtiyarlara da aman yoxdu. Bir yığım qızlı- erkəkli çocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu yavruları gəmirir. Çılpaq bir qadın yerə sərilmiş, ölmüş, bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir... 31 martın xatirələri yalnız bunlar deyildir. Mən hələ on minlərlə azəri qız və qadınlarının əsir sürüsü halında götürüldüyünü, "Rekord" teatrosunun o gün məhşəri andıran mənzərələrini, əsir bazarında azəri qızlarının satıldıqlarını... demirəm."

Həmin dövrün canlı şahidi və fəal iştirakçısı, erməni bolşeviki H.Əsiryans qeyd edir ki, "1918-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdaredici siqnaldan sonra biz hücum edib "Musavat"ın qərargahını tutmalı idik və belə də oldu." .

Ermənilərə və bolşeviklərə qarşı bərabər olmayan döyüşdə kütləvi qırğına məruz qalan türk-müsəlman əhalisi martın 31-də müqavimət göstərməyi dayandırdı. Həmin gün cürbəcür səbəblərlə danışıqların müsbət nəticələnməsinə mane olan İnqilabi Müdafiə Komitəsi istədiyinə nail olduqdan sonra ultimatum verdi. Ultimatumda İnqilabi Müdafiə Komitəsinin tələblərinin gündüz saat 3-ə kimi yerinə yetirilməyəcəyi təqdirdə döyüşləri davam etdirəcəkləri qeyd olunurdu. Həmin gün saat 4-də A.Aşurov, Ə.Topçubaşov, Molla Hacı Mirmöhsün, Hacı Hüseyn Tağıyev, Əbdül Kazımzadənin təmsil olunduğu milli partiya və cəmiyyətlərin nümayəndələri "Astra" otelində danışıqlara başladılar. İ. Fioletov, Dudin, Suxartsev, İranın Bakıdakı konsulu Həbibulla xan, Erməni Milli Şurasının üzvləri - L.Atabəyov, Ter-Mikasyanın da iştirak etdiyi iclasa A.Caparidze sədrlik edirdi. Ə.Kazımzadə törədilən faciələrdə "Musavat"ı təqsirləndirənlərə qəti etirazlarını bildirdi və bu hadisələr üçün bütün məsuliyyətin bolşevik-daşnak hərbi birləşmələrinin üzərinə düşdüyünü qeyd etdi.

Lakin uzun müzakirə və mübahisələrdən sonra İnqilabi Müdafiə Komitəsinin ultimatumu qəbul olundu. Başdan-başa bolşevik hakimiyyətinin möhkəmləndirilməsinə yönəldilmiş ultimatumda deyilirdi:

**1.** "Bakı fəhlə, əsgər və matros deputatları sovetinin hakimiyyəti qəbul edilir.

**2.** Əksinqilabi "vəhşi diviziya" Bakı və onun rayonlarından çıxarılır, yerdə qalan başqa müsəlman əsgəri hissələri, habelə erməni milli qoşun hissələri ya Bakıdan çıxarılır, ya da tamamilə fəhlə, əsgər və matros deputatları sovetinə tabe edilir, əhalinin bütün silahlanma işi Bakı Sovetinin nəzarətinə keçirilir.

**3.** Bakıdan Tiflisə və Petrovska dəmir yolunun açılması üçün təcili tədbirlər görülür".

İnqilabi Müdafiə Komitəsi döyüşlərin dayandırılması barədə göstəriş versə də, bu göstəriş yalnız kağız üzərində qaldı. Erməni birləşmələri müqavimət göstərməyə qabil olmayan türk-müsəlman əhalisinə divan tutmağa başladılar. Şəhərin Məhəmmədli və Poxludərə məhəllələrinin əhalisi demək olar ki, son nəfəsinə qədər qılıncdan keçirildi. Qoşunlar Azərbaycan əhalisinə məxsus bütün ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını dağıtdılar. "Kaspi mətbəəsi", "Açıq söz" qəzeti redaksiyası, "Müsəlman xeyriyyə cəmiyyəti"nin yerləşdiyi "İsmailiyyə" binası vəhşicəsinə yandırılmışdı. "Təzə pir" məscidinin minarələri mərmilərlə dəlik-deşik oldu. Bir sıra yerlərdə döyüşən əsgərlərə erməni ziyalılarının rəhbərlik etməsi faciənin milli zəmin üzərində qurulduğunu qəti sübut edir.

***Məmmədov Xəqani Məmməd oğlu,***
***tarix üzrə elmlər doktoru, professor***

# Pul qarşılığında əqidəsini satmaqda radikallar özləri əvəzsiz və təkrarolunmazdır

*Müxalifət düşərgəsi keçirdiyi uğursuz aksiyalardan, görünür, nəticə çıxarmaq fikrində deyil. Başa düşmək istəmir ki, aksiyaya bənzər bu mitinqləri, əslində, rüsvayçılıq nümunəsidir. Ola bilsin ki, radikallar bu biabırçılıqları görməzliyə vurur, amma ictimaiyyətin diqqətindən belə uğursuzluqlar heç də yayına bilməz. Azərbaycan cəmiyyəti xalqın adından çıxış edən, lakin əcnəbi ağalarının əmrlərinə müntəzir olanların simasına çoxdandır ki, bələddir. Bundan sonra müxalifətçilər bütün aksiyalarının eyni qaydada uğursuzluğunu, azalan tendensiyasını qəbul etmək məcburiyyətindədirlər.*



### Radikallar pul qarşılığında iştirakçı toplamaq niyyətindədirlər

Ayda bir neçə dəfə mini-aksiya keçirməklə iştirakçı sayını artırmaq, kəmiyyət və keyfiyyət dəyişiklikləri əldə etmək, müsbət nəticə hasil etmək olmaz. Məhz belə müsbət nəticə əldə etməyin bu yolla mümkünsüzlüyünü anlamayan cəbhəçilər yenidən keçirməyi planlaşdırdıqları mitinqə çağırışlar etməyə başlayıblar. Dəfələrlə təhqir və qeyri-etik çağırışlarla, aqressiv şəkildə insanları mitinqə toplamağa cəhd edən və bunun da nəticəsiz olduğunu anlayanlar indi daha acizanə metoda əl atıblar. Daha doğrusu, bu acizanə metod dedikdə, onların yalvarış dolu dəvətləri nəzərdə tutulur.

Sivil fəaliyyətdən başqa, bütün yollara əl atan, hər dəfə də bu yolların mənasız olduğunu anlayan, atdıqları bütün addımlara, qabaqlayıcı tədbirlərə, aksiyalara çağırış metodlarının müxtəlifliyinə rağmən fiaskodan yaxa qurtara bilməyənlər təkcə yalvarışlarla da kifayətlənmək niyyətində deyillər. Deyəsən, maddi təminat qarşılığında iştirakçı toplamaq kimi daha bir üsula da əl atılır. Əldə olunan məlumatlara görə, aztəminatlı müəyyən insanları maddi cəhətdən maraqlandıraraq, mitinqdə iştirak etməyə sövq edirlər. Hətta bəzi rayonlarda mitinqdə iştirak etmək qarşılığında pul paylanması faktı da ortaya çıxıb. Bir çox rayon sakinlərinə mitinqdə iştirak etmək məqsədi ilə Bakıya gəlmək və qayıtmaq üçün nəqliyyat xərcləri ödənilməklə yanaşı, hər birinə də əlavə 15 manat məbləğində pul paylanılır. Məsələn, Lənkəranda, Xaçmazda belə faktlar qeydə alınıb və bununla da, bəlli olur ki, dağıdıcı müxalif ünsürlər mitinq şousuna maddi həvəsləndirmə yolu ilə insanları cəlb etmək niyyətindədirlər. Görünür, müxalifət partiyalarının rayon təşkilatının belə nümayəndələrinin mitinqdə iştirak etmək niyyətində olmadığını yaxşı başa düşən müxalifət başbilənləri keçirmək istədikləri aksiyaya insanları cəlb etmək üçün bütün vasitələrə əl atmaqdan çəkinmirlər.

### Hafiz Hacıyev Cəmil Həsənlini qoca köpək adlandırır

Adətən, mitinqlərə iştirakçıların cəlb olunması, mitinqə toplaşanların kəmiyyəti "Milli Şura" sədri C.Həsənliyə həvalə edilir. Sədr də bu öhdəliyi hər dəfə öz üzərinə götürsə də öhdəiyini layiqincə yerinə yetirə bilmir. Məsələ dəfələrlə müzakirə mövzusuna çevrilsə də, "şura" sədri etimadı doğrultmamaqda, yarıtmazlıqda ittiham olunsa da, heç nə dəyişmir və hər keçirilən mitinq öncəkindən kəmiyyət və keyfiyyət baxımından, zərrə qədər də fərqlənmir. Nə C.Həsənli bu işin öhdəsindən gələ bilir, nə toplaşanların sayı artır, nə də hansısa müsbət nəticə əldə olunur. Artıq AXCP sədri Ə.Kərimli də, "Milli Şura"da təmsil olunanlar da, yaxşı başa düşür ki, "şura" sədri bu işin öhdəsindən gəlmək iqtidarında deyil və bunu ondan gözləməyə dəyməz.

Təbii ki, tarixçi alimi siyasətçi xadim kimi təqdim etmək, onun siyasi müstəvidə nəyə isə qadir olduğunu ifadə etmək niyyətimiz yoxdur. Onun uğursuz fəaliyyəti göz qabağındadır. Amma ola bilsin, C.Həsənli həm də yaşa dolduğu üçün, işin öhdəsindən gəlmək halında olmadığı üçün, bir sözlə, qocalıq səbəbindən də, belə yarıtmaz ola bilər. Hətta bu fikirləri Hafiz Hacıyev bir az da sərt şəkildə ifadə edərək, "şura" sədri C.Həsənlini qoca köpək adlandırır və bir növ qocalıq səbəbindən, bacarıqsızlıq nümayiş etdirdiyinə işarə edir.

### Pul müqabilində hər kəsin öz əqidəsini satacağına əbəs yerə ümid edirlər

Mitinqə qatılanların sayının dəyişmədiyini, artmadığını, hətta get-gedə azaldığını müşahidə edən dağıdıcı ünsürlər bu say tərkibinin artırılmasında cavanından tutmuş qocasına qədər çarəsiz və imkansız olduğunu yəqin edən müxalifət başbilənlərinin mitinq iştirakçılarının sayını pul gücünə artırmaq həvəsinə düşməsini də başa düşmək olar. Bir halda ki, bütün vasitələr nəticə vermirsə, bu biçarələr bu yolu da sınaqdan keçirməkdə ən son ümidlərə də əl atırlar. Əslində, əhalinin ən fəqir, ən aztəminatlı zümrəsinə, ən ehtiyaclı insanlarına da ümid edənlərin özlərinin hansı durumda olduğu da bununla bəlli olur. Görün, radikal müxalifət nə gündədir ki, fəqir-füqəranın toplaşmasına ümid edir. Fəqir-füqəra, ehtiyaclı, aztəminatlı deməklə cəmiyyəti zümrələrə ayırmaq niyyətində deyilik, amma məqsəd bu reallıqdan da, kimsələrin maddi ehtiyaclarından da sui-istifadə edənlərin daha acınacaqlı durumda olduğunu ifşa eməkdir.

Müxalifət düşərgəsi, gec də olsa, dərk etməlidir ki, pul qarşılığında əqidələrini satmaq baxımından onlar təkrarolunmaz nüsxədirlər. Kasıb da, varlı da, heç kim öz əqidəsini pula satmaq niyyətində deyil və onlardan fərqli olaraq satılmaq bu xalqa - Azərbaycan xalqına yaddır. Xalq, Azərbaycan cəmiyyəti dövlətçilikdən, hakimiyyətdən, sosial durumundan, islahatlardan, iqtisadi inkişafdan və ümumilikdə, dövlət siyasətindən razıdır. Bir sözlə, mitinq keçirilməsi üçün sosial sifariş yoxdur. Bu baxımdan, radikalların planlaşdırdığı mitinqdə kəmiyyət və keyfiyyətin, zərrə qədər də olsa, artmasına gümanı əbəsdir.

***İnam HACIYEV***

# İki radikal və anti-milli qütb bir arada



Azərbaycanda 11 aprel prezident seçkiöncəsi ictimai-siyasi mühitin normal olması, qeydə alınmış prezidentliyə namizədlərin təbliğat-təşviqat kampaniyaları üçün heç bir məhdudiyyətin olmaması, xalqın seçki prosesini maraqla izləməsi və təqdir etməsi yerli və xarici anti-Azərbaycan qüvvələrin böyük narahatlığına səbəb olub. Xüsusilə, radikal dindarların bu kimi məsələlərdə canfəşanlıq göstərmələri diqqət çəkməkdədir. Belə ki, seçkiləri boykot etdiklərini iddia edərək hakimiyyət uğrunda sivil mübarizə aparmaq istəmədiyini bir daha nümayiş etdirən "Milli Şura" adlanan qurumun radikal dindarlarla birgə fəaliyyətin təşkili məqsədilə vahid koordinasiya mərkəzi yaratması Azərbaycanın əleyhinə olan təxribatçı qüvvələrin öz ağaları qarşısında yeni öhdəlik götürdüklərindən xəbər verir.

### Bu xəyanətkar dairələr Azərbaycan xalqından qisas almağa cəhd göstərirlər

Xalqı hakimiyyətə qarşı kütləvi iğtişaşa, vətəndaş itaətsizliyinə səsləyən "Milli Şura" və Azərbaycanda "cihad" arzusunda olan radikal dindarları birlikdə fəaliyyət göstərməyə təşviq edən başlıca səbəblərdən biri isə, söz yox ki, Azərbaycanda hakimiyyət-xalq vəhdəti və birliyi amildir. Məhz bu əzəli birlik istər xaricdəki, istərsə də daxildəki mənfur dairələrin ciddi təlaşına səbəb olmaqdadır. Bu baxımdan, onlar hər vəchlə bu sarsılmaz birliyə qarşı çıxış edərək, qaranlıq niyyətlərini reallaşdırmağa cəhdlər göstərirlər. Radikal dindarlarla "Milli Şura"nın vahid koordinasiya mərkəzində bir araya gəlmələri də bunu ehtiva etməkdədir. "Milli Şura" və radikal dindarlar Azərbaycan hakimiyyətindən ölkədəki sabitlik və tərəqqi üçün, Azərbaycan xalqından isə onları daim müxalifətdə saxlaması, hər zaman mütərəqqi ideyaların daşıyıcısı olduğu üçün qisas almaq istəyir.

### Əli Kərimli bir-birinə zidd qütblər arasında manevrlər etməyə çalışır

O da, əbəs deyil ki, İran prezidentinin Azərbaycana səfərinə iki gün qalmış, "Milli Şura" ilə radikal dindarlar tələm-tələsik bir araya gələrək, vahid koordinasiya mərkəzi yaratdıqlarını elan edərək, guya öz planlarını reallaşdıracaqlarını sanıblar. Lakin sözügedən amil bir daha bu qüvvələrin Azərbaycan üçün nə qədər yad olduğunu və düşmən münasibəti bəslədiyini sübuta yetirmiş oldu.

Başqa tərəfdən, görünən həm də budur ki, anti-Azərbaycan və anti-İslam fəaliyyəti ilə tanınan bəzi Qərb institutlarının müəyyən etdiyi istiqamət üzrə hərəkət edən AXCP sədri Əli Kərimli martın 31-də keçirəcəyi mitinqində radikal dindarların iştirakını təmin etmək məqsədilə bir-birinə zidd qütblər arasında manevr etməyə çalışır. Bundan əvvəlki mitinqin biabırçılıqla, rüsvayçılıqla nəticələnməsi də, onu bu addımı atmağa sövq edir.

O cümlədən, "Milli Şura" və radikal dindarların başlıca hədəflərindən biri Azərbaycan xalqı ilə hakimiyyət arasında gərginlik yaratmaq, ölkəni döyüş poliqonuna çevirməkdir. Bu məqsədlə qarşıya qoyulan vəzifələrdən biri müxtəlif təxribatlar törədərək mümkün qədər çox mitinq iştirakçısının həbs olunmasına nail olmaqdır. Necə deyərlər, onlar vəziyyəti "öz xeyirlərinə" dəyişmək üçün indi də yuxarıda qeyd edilən cılız motivləri işə salmağa çalışırlar. Təbii ki, burada Taleh Bağırzadənin "tilovuna" düşmüş avam dindarlar, əsas alət olaraq, işlədiləcək ki, onların radikallaşdırılmış düşüncələri Ə.Kərimlinin maraqları naminə istifadə olunmaq üçün nəzərdə tutulub. Bu isə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, Ə.Kərimli ilə T.Bağırzadənin yeni vüsət almış sinxron fəaliyyətlərinin təməlini təşkil edən məqsəd və öhdəlik seçkiöncəsi və seçkidən sonra Azərbaycan hakimiyyətinin beynəlxalq təzyiqlərə məruz qalmasını təşkil etməkdir.

### Hətta bu qüvvələr Azərbaycan uğrunda öz sağlamlığını qurban vermiş Qarabağ veteranlarını belə təhqir etməkdən çəkinmirlər!

Digər yandan, bu gün belə bir hal sosial şəbəkələrdə də müşahidə olunmaqdadır. Daha doğrusu, Azərbaycanda heç bir sosial bazaya və xalqın dəstəyinə sahib olmayan "Milli Şura" və radikal dindarlar formalaşdırdıqları trollar dəstələri vasitəsilə sosial şəbəkələrdə Azərbaycan hakimiyyəti haqqında dezinformasiya tirajlayır, dövlət və dövlətçilik üçün zərəli ideyaların yayılması ilə məşğul olurlar. Hətta bu qüvvələr Azərbaycan uğrunda öz sağlamlığını qurban vermiş Qarabağ veteranlarını belə təhqir etməkdən çəkinmirlər. Bu barədə kifayət qədər sübutlar və dəlillər var.

Əminliklə demək olar ki, "Milli Şura" vətəndaş qarşıdurması yolu ilə Azərbaycan dövlətçiliyini məhvə doğru sürükləmək, radikal dindarlar isə ölkədə dünyəvi quruluşu ləğv etmək və şəriət qanunlarına əsaslanan rejim yaratmaq niyyəti güdürlər. Bu iki qeyri-konstruktiv qüvvənin bir araya gəlməsi Azərbaycan xalqı üçün yaxşı heç nə vəd etmir. Bu baxımdan, xalqın iqtidarla sarsılmaz birliyi bu cür zərərli ünsürlərin ayaq açıb yürümələrinə, əsla, izn verməyəcək.

***R.RƏSULOV***

# ATƏT və seçkilər

***İnsan hüquqlarına əməl olunmasında və demokratik surətdə təmsil olunmuş hökumətdə ümumi və əsas hüququn təmin olunmasında mühüm rol oynayan açıq və şəffaf seçkilər ATƏT-in üzvü olan ölkələrdə fəaliyyət göstərən bir sıra beynəlxalq sənədlərdə təsbit olunmuşdur. Onlardan daha mühümü Ümumdünya İnsan Haqları Bəyannaməsidir ki, onun 21-ci maddəsində aşağıdakılar əksini tapmışdır:***

**1.** Hər bir insan öz ölkəsinin idarə olunmasında, bilavasitə, yaxud azad

seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.

**2.** Hər bir insan öz ölkəsində dövlət qulluğuna girmək məsələsində bərabər hüquqa malikdir.

**3.** Hakimiyyət üçün xalqın iradəsi əsas olmalıdır; bu iradə gizli səsvermə, yaxud səsvermənin azadlığını təmin edən başqa bərabər formalar vasitəsilə ümumxalq və bərabər seçki hüququ ilə keçirilməli olan dövri və saxtalaşdırılmamış seçkilərdə öz ifadəsini tapır.

Ümumdünya İnsan Haqları Bəyannaməsi əsasında insan hüquqları sahəsində yeni beynəlxalq standartlar və öhdəliklər, o cümlədən, mülki və siyasi hüquqlar haqqında BMT-nin Beynəlxalq Paktı (MSHBP), Avropa Şurasının İnsan Hüquqları və Əsas Azadlıqlarıın Müdafiəsi haqqında Avropa Konvensiyası (İHAK), Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (sonralar ATƏT-ə çevrilmiş ATƏM) 1990-cı il Kopenhagen sənədindəki öhdəlikiər işlənib-hazırlanmışdır. Bu başlıca sənəddə öz ölkəsinin idarə olunmasında vətəndaşların iştirakı hüququnun təmin olunmasında seçkilərin mərkəzi rolu, xüsusilə, qeyd olunur.

Qısa şərhdə də Kopenhagen sənədi tələb edir ki, ölkələr:

- azad seçkiləri ağlabatan dövriliklə keçirsinlər;

- ümumxalq seçkilərinin gedişində, heç olmasa qanunverici orqanın bir palatasında bütün mandatların yerləşməsinə imkan versinlər;

- ümumxalq və bərabər seçki hüququna zəmanət versinlər;

- seçkilərin gizli keçirilməsi, səslərin sayılması və onlar haqqında məlumatın düzgün olmasını, nəticələrin isə çap olunmasını təmin etsinlər;

- vətəndaşların siyasi və ya dövlət vəzifələrinə nail olmaq hüququna

hörmət etsinlər;

- siyasi partiyalar yaratmaq hüququna hörmət etsinlər, hakimiyyət orqanları və qanun qarşısında bərabərlik əsasında bir-biri ilə yarışmaq imkanlarını təmin etsinlər;

- siyasi kampaniyaların namizədlər, partiyalar və ya seçicilərə hər hansı inzibati təzyiq, zorakılıq, yaxud cəzalanma qorxusu olmadan vicdanla və azad şəraitdə keçə bilməsini təmin etsinlər;

- KİV-ə maneəsiz, ayrı-seçkilik qoyulmadan buraxılışı təmin etsinlər;

- zəruri miqdarda səs almış namizədlərin lazımi qaydada vəzifələrinə başlamalarını təmin etsinlər.

Hüquqi müdafiədə hüququn təmin olunması üzrə standartlar Ümumdünya İnsan Haqları Bəyannaməsində (8,10 və 11-ci maddələr), mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda (2(3-cü bənd), 9 və 140-cı maddələr), Avropa Şurasının İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (6,7 və 13-cü maddələr) və Kopenhagen sənədində (5-ci maddə) qısaca və dürüst ifadə edilmişdir.

Dövlətlər qadınların yetərincə ictimai-siyasi həyatda iştirak edə bilməməsi problemlərindən son dərəcə narahatlıqlarını ifadə edirlər. Ümumdünya İnsan Haqları Bəyannaməsində və ATƏT-in digər beynəlxalq sənəd və öhdəliklərində dəqiq deyilmişdir ki, hər bir insan onun bütün hüquqlarına, o cümlədən, cinsi, yaxud daha hansısa başqa əlamətinə görə ayrı-seçkilik olmadan siyasi proseslərdə iştirak etmək hüququna hörmət olunmasına layiqdir. Bu sahədə mövcud beynəlxalq standartlar haqqında, qadınlara münasibətdə ayrı-seçkiliyin bütün təzahürlərinin ləğv edilməsi haqqında BMT Konvensiyasının mətni və 1991-ci il tarixli insan ölçüləri - dəyərləri üzrə ATƏT-in Moskva sənədi ilə (40,40(1-ci bəndi və 40(8-ci bənd)-ci maddələr) tanış olduqda daha ətraflı öyrənmək olar.

İnsan hüquqları üzrə bir çox beynəlxalq sənədlərdə milli azlıqların müdafiəsi ilə əlaqədar müxtəlif azlıqlara mənsub olan şəxslərin bərabər siyasi hüquqlarının təmin edilməsi prinsiplərinin əsası qoyulmuşdur. Son zamanlar bu məsələlərə daha çox diqqət yetirilir və irqi ayrı-seçkiliyin bütün təzahürlərinin ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya (maddə 2), milli, yaxud etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında BMT Bəyannaməsi (maddə 2), Avropa Şurasının milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası (maddə 15) və ATƏT-in Moskva sənədi kimi başlıca beynəlxalq sənədlərdə bu standartlar öz əksini tapmışdır. Bu standartlar milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştiraki üzrə Lund tövsiyələrində sonradan daha da təkmilləşdirilmişdir.

Qeyd edək ki, Kopenhagen sənədinin 8-ci paraqrafında ATƏT regionunun beynəlxalq və daxili müşahidəçilərinin rolu etiraf edilir. Burada, xüsusilə, deyilmişdir ki, "xarici müşahidəçilər kimi daxili müşahidəçilərin də iştirak etmələri seçki prosesinin nüfuzunu artıra bilər". 10-cu paraqrafda vətəndaş təşkilatlarının "öz ölkələrində və onun hüdudlarından kənarda bu kimi orqanlarla və beynəlxalq təşkilatlarla, maneəsiz olaraq, müvafiq əlaqələri saxlamaq," eləcə də, "milli və beynəlxalq mənbələrdən maliyyə mədaxillərini tələb etmək və istifadə etmək" hüququ təsdiq olunur. Daha sonra, 12-ci paraqrafda iştirakçı dövlətələr "məhkəmə proseslərində qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakının etimadın möhkəmləndirilməsi tədbirləri kimi qəbul edilməsini" həll edirlər.

1998-ci ildə Slovakiya vətəndaşları həmin ilin sentyabrında keçirilməli olan parlament sсçkilərini müşahidə etmək üçün "Qrajdanskoye oko" ("Vətəndaş nəzəri") müşahidəçilər qrupu yaratmışdılar. Ancaq seçki məntəqələri ərazisində olmaq və bütün səviyyələrdə seçki komissiyalarına girmək ixtiyarı olan beynəlxalq müşahidəçilərdən fərqli olaraq, hakimiyyət "Qrajdanskoye oko" müşahidəçilərinə bu hüquqları verməmişdi.

"Qrajdanskoye oko"nun fəallarıı onlara seçkilərdə iştirak etmək hüququna zəmanət verən konstitusiya maddələrinə müraciət edərək, bu qərarın konstitusiyaya uyğunluğu barədə Konstitusiya Məhkəməsində iddia qaldırmışdılar.

Məhkəmə "Qrajdanskoye oko"nun xeyrinə yeni qərar qəbul etdi və bununla, Slovakiya vətəndaşlarının seçkiləri müşahidəni həyata keçirmək hüquqlarını təsdiq etmiş oldu.

Bu və ya digər seçkinin hamılıqla tanınmış beynəlxalq standartlara uyğunluq dərəcəsi beynəlxalq və eləcə də, daxili müşahidəçilərə onlan qiymətləndirmək imkanı verir. Təbiəti etibarilə beynəlxalq standartlar dövlətlərin əməl etməli olduqları daha ümumi prinsipləri bəyan etməklə, daha ümumi xarakter daşıyır. Daxili müşahidəçilər qrupu qarşısında onların beynəlxalq standartlara uyğunluğu məqsədilə daha konkret məsələləri qiymətləndirmək vəzifəsi dayanır. Bir qayda olaraq, daxili müşahidəçilərdə, onların ölkələrində beynəlxalq standartlara əməl olunmasını müəyyənləşdirməklə bağlı ciddi problem yaranmır. Ancaq bəzi hallarda şərait daha mürəkkəb ola bilər. Bu zaman ölkələrin yerinə yetirməli olduqları beynəlxalq standartlarla, əməl olunması arzu edilən, ancaq məcburi olmayan ümumi qəbul edilmiş praktikadan fərqini unutmaq olmaz. Sonrakı abzaslarda söhbət ATƏT-in üzvü olan bütün dövlətlərin yerinə yetirilməsini öz üzərlərinə götürdükləri və daxili müşahidəçilər qrupunun nəzərə almalı olduğu əsas beynəlxalq standanlarla əlaqədar seçkilərin konkret təbiətindən gedəcək. Önlara seçkilərin dövriliyi, həqiqiliyi, seçkilərin azad və ədalətliliyi, ümumxalq və bərabər seçki hüququ, səsvermənin gizliliyi prinsiplərinə əməl edilməsi aiddir. Bu öhdəliklərə əməl edilməsində məsuliyyəti hər dövlətin hökuməti ayrılıqda daşıyır.

Seçkilərin dövriliyi - seçkilərin qanunla müəyyən edilmiş müntəzəm zaman kəsiyində keçirilməli olduğunu bildirir. Seçkilər arasındakı fasilə ağlabatan hüdudları keçməməlidir. Belə ki, əgər dövlət başçısının seçkisi yeddi ildə bir dəfədən gec olmayaraq, parlament seçkiləri isə, heç olmasa, beş ildə bir dəfə keçirilirsə, bu, normal praktika sayılır. Dövlət hakimiyyətinin icraedici qolunun məmurları öz vəzifələrinə ömürlük seçilməməlidirlər.

Seçkilərin həqiqiliyi - seçicilərdə real seçimin mövcudluğu və xalqın öz hökumətini dəyişmək hüququ ilə əlaqədardır. Əgər seçkilər alternativsiz əsasda keçirilirsə, əgər namizədlərə və siyasi partiyalara onların yaranması, yaxud fəaliyyəti gedişində əsaslandırılmamış məhdudiyyət tətbiq olunursa, yaxud seçicilərdə hakimiyyətdə olan şəxsləri təzədən seçməyə real imkan olmursa, onda seçkilərin həqiqiliyi şübhə altına alınır.

Azad seçkilər - seçkilərin keçirilməsinə qədər, seçkilər vaxtı və seçkilərdən sonra insan hüquqları və əsas azadlıqlarına əməl olunmasını bildirir. Bütün vətəndaşlara, partiyalara və namizədlərə öz fikrini ifadə etmək azadlığı, hərəkət azadlığı, assosiasiyalar və dinc yığıncaqlar hüququna zəmanət verilməlidir. Seçki prosesləri gedişində zorakılığa, hədə-qorxuya, inzibati, yaxud məhkəmə qaydasında təqibə yol verilməməlidir. Seçki kampaniyasını sərbəst işıqlandırmaq üçün mətbuatın bütün imkanları olmalı; vətəndaş təşkilatları isə seçkilərlə qeydəalmanın effektli və ədalətli sistemi fəaliyyət göstərməlidir. Bütün seçicilər, o cümlədən, əlillər və daxildə yerlərini dəyişən şəxslər səsvermə məntəqələrinə və digər seçki prosedurlarına daxil olmaq imkanı qazanmalıdırlar. Səsvermələrdə qadınlar, müxtəlif azlıqlara mənsub olan şəxslər və digər kateqoriyalı seçicilərin iştirakı üçün məhdudiyyət olmamalıdır. Bərabər seçki hüquqi həm də hər səsin bərabərliyini nəzərdə tutur. Proporsional sistem şəraitində hər seçki dairəsində nümayəndələrin sayı elektoratın ölçülərinə uyğun gəlməlidir. Müəyyən edilmiş seçki hüdudları, süni olaraq yuxarı qaldırılmamalıdır, əks-halda, seçicilərin böyük kateqoryaları öz iradələrini bildirmək imkanından məhrum ola bilərlər. Majoritar sistemdə əhalinin sos verməsi, yaxud dairədə seçicilərin sayı təxminən eyni olmalıdır, ona görə də 10% fərq müəyyən suallar doğura bilər. Səsvermənin gizliliyi - seçicilərin xüsusi təchiz olunmuş və əlahiddə kabinələrdə yerləşərək, bülleteni müstəqil doldurmalı olduqlarını bildirir. Bu zaman kənar şəxsin səsvermə proseduruna, o cümlədən, doldurulmuş bülletenlərin seçki qutularına salınması prosesinə qarışması imkanı istisna olmalıdır. Vətəndaşların iradələrini ifadə etmələri elə keçməlidir ki, sonra bu və ya digər bülletenin seçicilərdən, məhz kimin doldurduğunu müəyyən etmək mümkün olmasın. Bütöv qruplarla səsvermə, başqa seçicilərin əvəzinə, yaxud xüsusi kabinədən kənarda səsvermə - səsvermənin gizliliyinə ziddir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 31 mart


## Daşkəsənlilərin seçimi cənab İlham Əliyevdir







Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Daşkəsən rayon şöbəsinin seçicilərlə növbəti görəşi Qaraqullar kəndində keçirilib.

Görüşdə çıxış edən YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev bildirib ki, artıq Daşkəsən rayonunun bir neçə yaşayış məntəqələrində bu cür mitinqlər, görüşlər təşkil olunur, hamı öz sözünü, istəyini demokratik şəraitdə ifadə edir: "Bu gün sizin bu görüşə belə böyük həcəslə, istəklə gəlməyinizi gördükdən sonra bir daha əmin olduq ki, Azərbaycanda xalq-iqtidar birliyi çox güclüdür. Bu da səbəbsiz deyil. Cənab İlham Əliyevin xalq qarşısındakı xidmətlərini indi hər bir azərbaycanlı yaxşı görür və hiss edir. Bu istək, qarşılıqlı hörmət vətənini, xalqını sevən hər bir azərbaycanlının ürəyində əbədiyyətə qədər yaşayacaqdır".

Sonra mitinqdə seçicilər - Aygün Bayramova, Daşdəmir Məmmədov, Fidail Həsənov, Kifayət Aslanova, Elnur Ələsgərov, Malik Əliyev və digərləri çıxış edərək vətən, xalq qarşısındakı böyük xidmətlərinə, Heydər Əliyev siyasətini dövrün, zamanın tələblərinə uyğun yaradıcılıqla, yüksək səviyyədə davam etdirdiyinə görə cənab İlham Əliyevə səs verəcəklərini bildirərək mitinq iştirakçılarını da 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində YAP-ın namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya ixtisası üzrə III kurs tələbəsi Hacıyeva Aytac İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya ixtisası üzrə III kurs tələbəsi Ağayeva Təhminə Yusif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




R

## Qaradağ rayonunun qadın seçiciləri YAP-ın namizədini dəstəkləyirlər





Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirirlər. Partiyanın Sədri, Azərbaycan Respublikası Prezidentliyinə namizəd İlham Əliyevin seçki kampaniyası çərçivəsində növbəti görüş Qaradağ rayon qadınları ilə keçirilib.

Sonra çıxış edən YAP Qaradağ rayon təşkilatının Qadınlar Şurasının sədri Hicran Xəlilova Azərbaycan qadınlarının ictimai-siyasi həyatdakı fəal rolu barədə məlumat verərək bildirib ki, Azərbaycan qadını həmişə öz iradəsi və mərdliyi, sədaqəti, ailəyə, milli-mənəvi dəyərlərimizə bağlılığı ilə cəmiyyətimizin həyatında, Azərbaycan dövlətçiliyinin güclənməsində, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında mühüm rol oynayıb. O, prezident seçkilərinin Azərbaycanın gələcək inkişafında mühüm əhəmiyyətini qeyd edərək qadınları bu prosesdə də fəal iştirak etməyə, Azərbaycan xalqının alternativsiz lideri, YAP-ın namizədi cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının Seçki qərargahının üzvü Hacı İbrahimov bildirib ki, son 10 ildə Azərbaycanın sosial-iqtisadi, siyasi-ictimai həyatında qazanılan uğurlarda xanımlarımızın, qadınların çox böyük və gərgin əməyi olub. O həmçinin cənab İlham Əliyevin rhbərliyi ilə Azərbaycanın qazandığı böyük uğurlar barədə də danışaraq əlavə edib ki, bu gün biz Onun siyasətini, uğurlarını görürük və hər bir Azərbaycan vətəndaşını xalqımızın alternativsiz lideri cənab İlham Əliyevə səs verməyə çağırırıq.

Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatı Qadınlar Şurasınıən sədr müavini, Hicrət Qaradağlı, Qərargah üzvü Təranə Qasımova, rayon sakinləri Aytac Tağıyeva, Emilya Axundova söyləyiblər ki, hər zaman olduğu kimi bu dəfə də Qaradağ rayon qadınları Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevi dəstəkləyir və alternativsiz liderinə dəstəyini səsvermə məntəqələrində fəallığı ilə isbatlayacaq.

## YAP Şabran rayon təşkilatı rayonun Çayqaraqaşlı və Rəhimli kənd seçiciləri ilə görüş keçirib





YAP Şabran rayon təşkilatı rayonun Çayqaraqaşlı və Rəhimli kənd seçiciləri ilə görüş keçirib. Görüşdə 11 aprel 2018-ci il tarixdə keçiriləcək Prezident seçkiləri üzrə YAP-nın Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsində yaradılmış təbliğat qrupun sədri YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov, təbliğat qrupun üzvləri YAP Şabran rayon təşkilatının Şura üzvləri Tofiq Əmrahov və Əmircan Ocağov iştirak edib.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500